# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycanı Qurtuluşa aparan tarixi gün



3

SƏS
№ 098 (7266)
6 iyun 2025-ci il.
Qiyməti 60 qəpik

# Beynəlxalq yarışlarda parlaq qələbə




2

**Dövlət başçısının Sərəncamı ilə Azərbaycan Minifutbol Federasiyasına 2,0 (iki) milyon manat ayrılıb**

# Qurban bayramı:
## mənəvi birlik, xeyirxahlıq rəmzi

**Prezident İlham Əliyev: Ümidvar olduğumu bildirirəm ki, saf niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Ulu Tanrının mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır"**




5

## "Mat", yoxsa "pat"?



6

## BMT-də erməni vəhşiliyi müzakirə oluna bilər




11

## Yenə bank kartlarından 10 minə yaxın pul oğurlanıb...



16

## Planetin "zibilqabı": okeanlar



15

## Qurbanı da qurban verdik...



12

# Beynəlxalq yarışlarda parlaq qələbə

## Dövlət başçısının Sərəncamı ilə Azərbaycan Minifutbol Federasiyasına 2,0 (iki) milyon manat ayrılıb

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və müasir dövrdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən idmana və idmançılara diqqət və qayğının nəticəsi olaraq uğurlu qələbələr əldə olunur. Bu günlərdə Azərbaycan millisinin Bakıda keçirilən dünya çempionatında qalib olması ölkəmizin idman tarixində yeni səhifə oldu. Azərbaycan millisi finalda Macarıstana 4:2 hesabı ilə qalib gələrək dünya çempionu kimi tarixə adını həkk etdi. "Çempionatı izləyənlər öz gözləri ilə bizim oyunçularımızın tam üstünlüyünü görə biliblər. Mən oyunlarınızın son dördünü izləmişəm və tam əminliklə deyə bilərəm ki, bu qələbə ədalətli mübarizədə qazanılmış qələbədir. Siz bu qələbəyə layiqsiniz. Futbol meydançasında bütün rəqibləri üstələmisiniz və eyni zamanda, gözəl komanda ruhu nümayiş etdirmisiniz  siz bu qələbəyə layiqsiniz və bütövlükdə qələbələr Azərbaycana yaraşır." Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev iyunun 2-də Bakıda keçirilmiş minifutbol üzrə dünya çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvlərini qəbul edərkən görüşdə çıxış edərkən bildirib.

Dövlət başçısının idmana, gəncliyə verdiyi dəstək uğurları şərtləndirir. Onu da vurğulayaq ki, komanda 2022-ci ildə Avropa çempionu olanda Azərbaycan Prezidenti onlarla səmimi söhbəti zamanı tapşırıqlarını vermişdi. Bu gün isə artıq dünya çempionu oldular.






### "AZƏRBAYCAN MİLLİ KOMANDASI BÜTÜN MÜMKÜN OLAN TİTULLARI QAZANIB - AVROPA ÇEMPİONU, DÜNYA ÇEMPİONU"

"Azərbaycan Minifutbol Federasiyasına maliyyə dəstəyi göstərilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı idmaa ayrılan diqqət və qayğının daha bir nümunəsidir. Sərəncama əsasən, Azərbaycan milli yığma komandasının 2025-ci il minifutbol üzrə Dünya çempionu olması ilə əlaqədar Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Minifutbol Federasiyasına 2,0 (iki) milyon manat ayrılıb.

Əlbəttə ki, bu diqqət və qayğının nəticəsidir ki, idmançılarımız beynəlxalq arenada böyük uğurlar qazanır. İdmançılarımız Azərbaycanı layiqincə və uğurla təmsil edirlər. Azərbaycanın sürətli, dinamik inkişafı idman sahəsində də özünü göstərir. Xalqımız dövlət müstəqilliyini bərpa etdikdən sonra, bütün sahələrdə olduğu kimi, idman sahəsində də əsaslı irəliləyişlərə nail olunub və beynəlxalq yarışlarda bir sıra parlaq qələbələrə imza atılıbdır.

"Bu qələbə minifutbolun inkişafına növbəti təkan verəcək. Artıq Azərbaycan milli komandası bütün mümkün olan titulları qazanıb - Avropa çempionu, dünya çempionu. Əlbəttə ki, uşaqlar, yeniyetmələr, bax, bu qələbəyə sevinənlər - bizim gənc nəslimiz hesab edirəm ki, minifutbola daha böyük maraq göstərəcək və bu idman növünün inkişafı Azərbaycanda sürətlə gedəcək", - deyə dövlət başçımız çıxışında bildirib.

### AZƏRBAYCANI LAYİQİNCƏ TƏMSİL EDƏN İDMANÇILARIMIZ

Ölkəmiz son onilliklərdə I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Formula 1 kimi bir çox mötəbər beynəlxalq idman tədbirlərinə, dünya çempionatlarına ev sahibliyi edib. Bütün bunlar Azərbaycanda idmana kütləvi marağı artırmaqla yanaşı, digər sahələrdə də irəliləyişlərə kömək göstərir. Turizmin və mədəniyyətin inkişafına, iqtisadi əlaqələrin genişlənməsinə fayda verir.

Azərbaycanda keçirilən Dünya və Avropa çempionatları bir daha sübut etdi ki, həqiqətən də, Azərbaycanda idman uğurla və sürətlə inkişaf edir. Müasir dövrümüzdə Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. "İdmanın və idman qələbələrinin ictimai məkanda çox böyük rolu var, - deyə çıxışlarının birində bildirən Azərbaycan Prezidenti qeyd edib ki, xüsusilə gənc nəslin yetişdirilməsi, vətənpərvərlik hisslərinin gənc nəslə aşılanması üçün idman amili çox böyük məna daşıyır: "Nəzərə alsaq ki, bu Yay Olimpiya Oyunlarında Azərbaycan müzəffər ölkə kimi, qalib ölkə kimi iştirak edirdi, idmançılarımız isə müzəffər xalqın nümayəndələri kimi iştirak edirdilər. Əlbəttə ki, bu vətənpərvərlik amili daim diqqətdə olmalıdır".

### "BİZ ÖZÜMÜZƏ DƏ, DÜNYAYA DA SÜBUT ETMƏLİ İDİK VƏ EDİRDİK Kİ, BİZ GÜCLÜ DÖVLƏTİK"

Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Əlbəttə ki, 44 günlük Vətən müharibəsində qazanılan Zəfər hər bir azərbaycanlının başını uca edib, onları qürurlandırır. Bu gün dünya ölkələrinə müxtəlif məqsədlərlə səfər edən insanlarımız Qalib xalqın nümayəndəsi olaraq fəxarət hissi keçirirlər. Dünya arenasında idman ölkəsi kimi tanınan Azərbaycanın idmançıları bu gün yarışlara qalib ölkənin nümayəndələri kimi qatılırlar. "Fiziki güc mənəvi saflığa da yol açır və şadam ki, bizim idmançılarımızın mütləq əksəriyyəti idmanda da, məişətdə də, cəmiyyətdə də nümunədirlər, örnəkdirlər. Onların davranışı, cəmiyyətdəki fəaliyyəti məni və əminəm ki, bütün xalqımızı sevindirir. Azərbaycan gənci məhz belə olmalıdır - vətənpərvər, fiziki cəhətdən güclü, mənəvi cəhətdən saf, öz xalqına, dövlətinə bağlı, heç bir kənar təsirə boyun əyməyən və ləyaqətli Azərbaycan gənci. Yenə də deyirəm, əlbəttə ki, 1996-cı ildən bu yana bütün Olimpiya Oyunlarında iştirakımız, o cümlədən bu məqsədi daşıyırdı. Biz özümüzə də, dünyaya da sübut etməli idik və edirdik ki, biz güclü dövlətik. Hər dövlətin gücü isə onun xalqının gücünə söykənir", - deyə Prezident bildirib.

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı öz müsbət nəticəsini verib. Müxtəlif idman növləri - güləş, futbol, intellektual oyunlar, şahmat və s. növlərdə Azərbaycan Avropanın və dünyanın diqqətindən kənarda qalmayıb. İdmana ayrılan diqətin nümunəsidir ki, mötəbər idman yarışları, tədbirlər ölkəmizdə davamlı olaraq təşkil olunub. Əlbəttə ki, müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində, ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilməklə yanaşı, idmançılarımız mötəbər yarışların qalibi olub. Son illərdə Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi böyük investisiya tələb edən müasir idman qurğularıdır. Eyni zamanda, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, "Baku Crystall Hall", Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, "Bakcell Arena", Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi və digər idman kompleksləri müxtəlif növ yarışların keçirilməsinə imkan verir. İndi, nəinki paytaxt Bakıda, demək olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya idman kompleksləri fəaliyyət göstərir. Gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam yetişməsini dövlətimiz daim diqqət mərkəzində saxlayır. Məhz bu diqqət və qayğı Azərbaycanın qarşıdakı illərdə idmanda daha böyük uğurlara imza atacağını deməyə əsas verir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Azərbaycanı Qurtuluşa aparan tarixi gün



Müasir Azərbaycanın otuz ildən artıq müddətdə dövlət quruculuğu, iqtisadi dirçəliş, ictimai-siyasi və sosial həyatda tərəqqi dövrünü əhatə edən bütöv bir epoxası Ümummilli Lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Xalqın qürur və iftixar mənbəyi olan dünyaşöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyev yorulmaz fəaliyyəti, qətiyyəti, siyasi bacarığı, Azərbaycana böyük sevgisi ilə ölkənin uğurlu gələcəyinin təməlini qoydu. Beynəlxalq miqyasda etibarlı tərəfdaş, demokratik ölkə kimi tanınan müstəqil Azərbaycanın keçdiyi uğurlu inkişaf yolu Ulu Öndər Heydər Əliyevin uğurlu siyasətinin məntiqi nəticəsidir. Azərbaycanın müstəqil dövlət kimi təbii sərvətlərinə sahib çıxması, milli mənafeyini, iqtisadi və strateji maraqlarını müdafiə etmək gücünə malik olması, məhz Ümummilli Lider Heydər Əliyevin müdrik siyasətindən qaynaqlanıb. Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradıb. Azərbaycanı, Azərbaycan xalqını böyük bəladan, dəhşətli fəlakətdən Ulu Öndər Heydər Əliyev fenomeni, cəsarəti və müdrikliyi qoruyub-saxlayıb. Ulu Öndər Heydər Əliyevin fəaliyyəti, iradəsi və xalqa arxalanması, xalqın da öz Müdrik Liderinə güvənməsi və geniş xalq məhəbbəti vəhdətdə birləşdiyindən, Azərbaycan dövlətçiliyi məhvolma təhlükəsindən xilas oldu.

Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Ölkə 1991-93-cü illərdə demək olar ki, total böhran yaşayırdı. İqtisadi, siyasi, hərbi böhran Azərbaycanı çox ağır vəziyyətə salmışdı və daxili çəkişmələr, özbaşınalıq, anarxiya və xaos demək olar ki, Azərbaycanın gələcəyini də şübhə altına qoyurdu. 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyevin siyasi hakimiyyətə qayıtmasından sonra vəziyyət sabitləşməyə başladı, bütün xoşagəlməz halların qarşısı alındı və Azərbaycan uğurlu inkişaf yoluna qədəm qoydu".

Əlbəttə ki, bu gün müstəqil dövlətimizin uğurlarından qürurla söz açarkən, bu nailiyyətlərin təməlinin qoyulduğu zamanın - Azərbaycan tarixinin silinməz salnaməsi olduğunu qeyd etməliyik. Tarixin silinməz zamanına çevrilən həmin məqamlar müstəqil dövlətimizi təhlükələrdən xilas etdi və bugünki dünyada nüfuz qazanmış müstəqil Azərbaycanın adını zirvələrə yüksəltdi. Xalqımızı nicata aparan yol - 1993-cü ilin 9 iyun tarixində başlanmışdır. Həmin tarixdən 31 illik bir zaman ötür. Həmin gün Ulu Öndər Heydər Əliyev Azərbaycanın milli dövlətçilik ənənələrinin bərpa edilməsi və milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində çox mühüm bir addım atmışdı.

## VƏTƏNİN XİLASI VƏ XALQIN QURTULUŞU

Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında Muxtar Respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan Parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul edildi. Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə oldu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul edildi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan KP-nin fəaliyyəti dayandırıldı və onun bütün strukturları ləğv edildi.

Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə qəbul etdi. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin Sessiyasında tarixi sənəd qəbul edildi. Amma Azərbaycan müstəqillik əldə etmiş olsa da, ölkədə hökm sürən ictimai-siyasi proseslər ölkəni məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. O dövrdə siyasi hakimiyyətdə olanların səriştəsizliyi üzündən vətəndaş müharibəsinə rəvac verildi, milli dövlətçiliyimiz ikinci dəfə məhv olmağın bir addımlığına gətirildi. Belə bir zamanda, xalq milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün Ümummilli Lider Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Ulu Öndərin bu qayıdışı Vətənin xilası və xalqın qurtuluşu idi.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Ümummilli Lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycanın siyasi hakimiyyətinə gəlməsəydi, indi nə Azərbaycandan, nə də ölkəmizdəki bugünki əmin-amanlıqdan və inkişafdan danışmaq olmazdı. Sonrakı hadisələrin gedişində ölkədə nisbətən sabitlik yarandı və oktyabrın 3-də Ulu Öndər Heydər Əliyev xalqımızın böyük əksəriyyəti tərəfindən ölkə Prezidenti seçildi.

## "AZƏRBAYCAN XALQI AZADLIĞINI ƏLDƏ ETMİŞ XALQ KİMİ YAŞAYACAQ, ÖZ MÜSTƏQİL DÖVLƏTİNİ QORUYACAQ"

1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışı ilə Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev Özü ilə bərabər Azərbaycana siyasi müdriklik gətirdi. "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz",- deyirdi Heydər Əliyev. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi və yüksək idarəçilik bacarığı vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Ümummilli Lider Heydər Əliyev "Müstəqilliyin qorunması onu əldə etməkdən qat-qat çətindir" məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı. Müstəqilliyin əvəzsiz nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi: "Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır", - deyən Dahi Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin müqaviləsi" imzalandı. "Əsrin Müqaviləsi"nin imzalanması milli iqtisadi inkişafın təməlini qoydu. Azərbaycanın "Əsrin Müqaviləsi"ndən başlanan yolu haqqında Ümummilli Lider Heydər Əliyev belə deyib: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən, neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadə etməkdən ibarətdir".

## AZƏRBAYCANIN ƏLDƏ ETDİYİ TARİXİ GERÇƏKLİKLƏR

1993-cü ildən başlayaraq, dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Bir sözlə, əgər müstəqil Azərbaycanın suveren dövlət kimi mövcud olması, tarixi zərurətdən irəli gələn hadisə idisə, Azərbaycanın müstəqilliyi əbədiliyi və dönməzliyi Ümummilli Lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olan müasir tariximizin danılmaz faktıdır. Böyük Qayıdışın möhtəşəm nəticələri təkcə Azərbaycanın dövlət müstəqilliyinin əbədiləşdirilməsi, ölkəmizin parçalanmasının qarşısının alınması və vətəndaş müharibəsinin dayandırılması ilə ifadə edilmir. Bu gün Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən bir ölkəyə çevrilmişdir. Beynəlxalq təşkilatlar regiondakı bütün layihələrdə Bakının mövqeyini nəzərə alırlar. Ölkəmiz sosial-iqtisadi inkişafın tempinə görə dünya dövlətləri arasında liderlər sırasındadır. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə yenidən qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələr məkanında nəzərəçarpan dönüş yarandı. Elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil siyasi inkişaf dövlətimizin möhkəmləndirilməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı. Bu gün Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ümummilli Lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq, müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Azərbaycanın uğurlu inkişafı təmin edilib və qarşıda duran bütün əsas vəzifələr uğurla icra edilib. Bunun təməlində düşünülmüş siyasət, həyata keçirilən islahatlar və dövlət proqramları dayanır. Ötən dövrdə uğurlu inkişaf tarixini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Ötən dövr aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir.

## ATA VƏSİYYƏTİNİ YERİNƏ YETİRƏN PREZİDENT

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndər Heydər Əliyev belə deyirdi: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun". Bütün ömrünü doğma Vətəninə və xalqına həsr edən Udu Öndər "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur", - deyirdi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. 30 illik işğala hərbi-siyasi yolla son qoyuldu. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Tarixi qələbənin qazanılmasında Ali Baş Komandan, Müzəffər Azərbaycan Ordusudur. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğulların şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı. Prezident İlham Əliyevin özünün də dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Azərbaycan Prezidenti İlham Əliyev xalqa məlum tarixi müraciətində Şuşanın işğaldan azad edilməsinin tarixi əhəmiyyətindən danışarkən "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!" - deyə bildirmişdi.

Bəli, Ulu Öndər Heydər Əliyevin böyüklüyü Onun sözü ilə əməlinin birliyində idi. Ulu Öndər hər zaman çalışırdı ki, insanların istəklərini, arzularını reallaşdırsın.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Heydər Əliyev böyük azərbaycanlıdır, böyük tarixi şəxsiyyətdir, müstəqil Azərbaycanın qurucusudur. O, öz ömrünü Azərbaycan xalqına həsr etmişdir və bütün dövrlərdə Azərbaycana sədaqətlə xidmət edirdi". Onun hər addımı ölkəmizin inkişaf tarixinə biri-birindən əhəmiyyətli uğur səhifələrini yazıb.

***Zümrüd BAYRAMOVA***

# TV-də yayımlanan verilişlər ictimai şüura necə təsir göstərir?

İnsanlar yerli kanallarda zövqlərini oxşayan, onları düşündürən, maraqlandıran, əyləndirən proqramlar görmədikləri üçün xarici kanallara üz tuturlar. Qəribəsi isə budur ki, kanallarda verilişlərin səviyyəsi aşağı olduqca, reytinqi yüksək olur. İlk baxışdan bu, absurd görünsə də həqiqətdir. Televiziya kanalları öz tamaşaçısının sosial sifarişini yerinə yetirməyə məcburdur. Əks halda kanalın sonu tezləşər. Tamaşaçının sosial sifarişi ilə hazırlanan proqramlar reytinq qazanır. Reytinq aşağı olanda kanalın gəlirləri də azalır. Bu öldürücü formul özəl kanallarımıza qənim kəsilib. Ona görə də, kanallarımız şit, bayağı, səviyyəsiz proqramlardan əl çəkə bilmirlər və bu proqramların girovuna çevriliblər. SİA televiziya verilişləri ilə bağlı şəhər sakinlərinin fikirlərini öyrənib.

**Şəhər sakini Həqiqət Şamilli:** "Müasir dövrdə televiziya verilişlərinin məzmunu



mənim şəxsi fikrimcə, qənaətbəxş deyil. Daha çox ictimai, elmi və maarifləndirici proqramlara yer verilsə, cəmiyyət və xüsusilə gənclik üçün daha faydalı olardı. Məncə, bu verilişlərin təsiri kifayət qədər güclüdür. Eyni zamanda ailə tərbiyəsinin də bu sahədə rolu böyükdür, lakin televiziyada nümayiş olunan məzmun bu istiqaməti müəyyən qədər dəyişə bilər. Əgər gənclərimiz üçün maarifləndirici, təbliğedici proqramlar çoxalarsa, bu onların inkişafına müsbət təsir göstərə bilər. Təəssüf ki, hazırda bu cür proqramların sayı az, əksinə, mənfi təsir yaradan verilişlər daha çoxdur. Elm və təhsilə yönəlik proqramlar, intellektual yarışmalar təşkil olunsa, bu sahədə uğur qazanan məktəbliləri və gəncləri ön plana çıxarsalar, bu, həm xalqımızın gələcəyi, həm də gəncliyin motivasiyası baxımından olduqca faydalı olar".

**Şəhər sakini Natəvan Məmmədova:** "Müasir dövrdə televiziya proqramlarının əksəriyyəti, xüsusilə də ailə-məişət yönümlü verilişlər, təəssüf ki, cəmiyyətə fayda verməmək əvəzinə mənfi təsir göstərir. Elə proqramlar var ki, ailə daxilindəki problemləri süfrə kimi hamının önünə sərir və bunu "həll



yolu" kimi təqdim edir. Halbuki, belə məsələlər yalnız ailə daxilində və gizlilik prinsipi əsasında həll olunmalıdır. Psixoloqların fikrincə, hətta, övladın yanında belə valideynlər arasında münasibətlərin gərgin şəkildə müzakirəsi düzgün deyil. Bu, uşağın psixologiyasına mənfi təsir göstərir və onu qorxulu, çaşqın bir mühitə salır. Xarici ölkələrdə ailə üzvləri arasında yaranan narazılıqlar övladın iştirakı olmadan, ayrıca və gizli şəkildə müzakirə olunur. Təəssüf ki, bəzi yerli televiziya proqramları ailə problemlərini ictimaiyyətə açıq şəkildə müzakirəyə çıxarır. Qohumlar, qonşular, bəzən heç ailə ilə əlaqəsi olmayan üçüncü şəxslər bu prosesə cəlb olunur və sanki məhkəmə qurulur. Halbuki, bu proqramların nə hüquqi, nə psixoloji, nə də sosial baxımdan ailə məsələlərini həll etmək səlahiyyətləri və imkanları yoxdur. Belə hallar ailənin daxili hörmət və etimadını dağıdır. Məsələn, bir kişi televiziyada həyat yoldaşının onu aşağıladığını eşidirsə, onun qüruru sınır, ictimai imici zədələnir və nəticədə ailəyə olan hörməti və inamı azalır. Bu isə ailənin dağılmasına səbəb ola bilər. Ona görə də, ailə daxilində yaranan problemlər yalnız ailənin öz çərçivəsində və hörmətlə, gizliliklə həll olunmalıdır. Hətta ikinci şəxslərin qaynana, qayınata və s.bu məsələlərə müdaxiləsi də məhdud olmalıdır. Ailənin öz daxilində qərar verilməsi və birgə həll yolları axtarılması ən sağlam yanaşmadır. Nəticə olaraq, televiziya proqramları ailə institutunun zəifləməsinə deyil, onun gücləndirilməsinə xidmət etməlidir. Ailə mövzularında maarifləndirici, pozitiv və dəyər yönümlü verilişlərə ehtiyac daha çoxdur".

**Şəhər sakini Mərahim Fərzəlibəyov:** "Televiziya verilişlərinin keyfiyyəti və məqsədi, əslində, həmin kanalların idarəetmə strategiyasından və məqsədli auditoriyasından asılıdır. Mənim şəxsi qənaətimə görə, xüsusilə Azərbaycan Dövlət Televiziyası (AzTV) və İctimai Televiziya (İTV) bu sahədə xüsusi yer tutur. Bu kanallarda təqdim olunan verilişlər, adətən, yüksək səviyyədə hazırlanır və əsas məqsəd tamaşaçıya keyfiyyətli, maarifləndirici və mədəni məzmun çatdırmaq olur. Hər iki kanal həm gənclər,



həm də intellektual səviyyəsi yüksək olan tamaşaçılar üçün faydalı verilişlər təqdim etməyə çalışır. Onların fəaliyyətində əsas hədəf sadəcə reytinq qazanmaq deyil, cəmiyyətin maariflənməsinə və dəyərlərin qorunmasına töhfə verməkdir. Bu da onların peşəkarlıq və sosial məsuliyyət baxımından ciddi yanaşma sərgilədiklərini göstərir. Digər özəl televiziya kanalları isə, təbii ki, daha çox kommersiya yönümlü fəaliyyət göstərirlər. Bu səbəbdən onların təqdim etdiyi proqramlar əksər hallarda daha geniş kütləyə, xüsusilə də, sadə və əyləncə yönümlü məzmun axtaran tamaşaçılara xitab edir. Onlar reytinq və gəlir əldə etməyi əsas məqsəd olaraq götürdükləri üçün, bəzən şou xarakterli və səthi verilişlərə üstünlük verirlər. Bu yanaşma da müəyyən qədər təbiidir, çünki ölkədə çoxsaylı televiziya kanalları fəaliyyət göstərir və bu sahədə ciddi rəqabət mövcuddur. Hər kanal öz auditoriyasına uyğun məzmun təqdim etməyə çalışır. Bununla belə, mən şəxsən daha çox Dövlət Televiziyası və İctimai Televiziyaya üstünlük verirəm, çünki onların təqdim etdiyi proqramlar həm maarifləndirici, həm də milli-mədəni dəyərlərə sadiq qalır. Bu isə uzunmüddətli perspektivdə cəmiyyət üçün daha faydalı və dəyərli nəticələr yaradır".

**Şəhər sakini Laçın Əsgərov:** "İctimai Televiziyanın cəmiyyətimizə təsiri olduqca böyükdür. Çünki kütləvi informasiya vasitələri cəmiyyətin inkişafında, mənəvi tərbiyəsində, dünyagörüşünün və dəyərlər sisteminin formalaşmasında mühüm rol oynayır. Xüsusilə də, televiziya bu təsirin daşıyıcısı kimi geniş auditoriyaya birbaşa təsir imkanına malikdir. Bu baxımdan İctimai Televiziya öz proqramları ilə milli adət-ənənələrimizin, tarixi irsimizin, mədəni köklərimizin unudulmamasına, əksinə, cəmiyyətə yenidən qazandırılmasına mühüm töhfələr verir. Bu gün informasiya bolluğunun hökm sürdüyü dövrdə televiziyanın, eyni zamanda internetin düzgün və məqsədyönlü istifadəsi gənc nəslin formalaşmasında həlledici rol oynayır. Buna görə də bir vətəndaş kimi arzu edərdim ki, efirə çıxarılan verilişlərə diqqətlə yanaşılsın və cəmiyyət üçün nümunə olacaq, gənclərin örnək götürəcəyi insanlar daha çox təqdim edilsin. Gənclər öz keçmişlərini unutmasınlar, çünki keçmişə bələd olmayan insan gələcəyə doğru sağlam addım ata bilməz. Günümüzdə bu məsələ çox aktualdır və praktik əhəmiyyət kəsb edir. Ona görə də televiziya verilişləri sistemli şəkildə yenilənməli, yeni formatda, yeni struktur və dizaynda proqramlar hazırlanmalıdır. Xüsusilə də, gənclərə xitab edən, onların milli-mənəvi kimliyini gücləndirəcək layihələrə üstünlük verilməlidir. Çünki biz təsadüfi bir xalq deyilik. Azərbaycan qədim, zəngin tarixi olan bir dövlətdir. Bizim xalqımızın keçmişi dərin və mənalıdır. Bəzi xalqlardan fərqli olaraq bizim tariximiz və mədəniyyətimiz çoxşaxəlidir və bu özünüdərk hissini möhkəmləndirmək üçün ciddi əsas verir. Ona görə də, bu məsələ təkcə bu gün üçün yox, gələcək üçün də son dərəcə vacib və strateji əhəmiyyət daşıyır".



**Şəhər sakini Tamara Cabbarova:** "Bəzi televiziya verilişlərinin o qədər də yaxşı təsiri yoxdur. Bəlkə də bu, bizim keçmiş nəsil nümayəndələri olmamızla bağlıdır. Ola bilsin ki, müasir dövrün verilişləri ilə emosional yaxınlıq qura bilmirik. Elə buna görə də, mənim üçün o qədər də maraqlı görünmürlər. Məncə, cəmiyyətə müəyyən təsirləri var. Bəzən bu təsir müsbət olur, bəzən isə biz, yaşlı nəsil, həmin dəyişiklikləri qəbul edə bilmirik. Əlbəttə, bu günün gəncləri fərqlidir. Biz başqa bir dövrün insanlarıyıq, bizim zamanımızda başqa dəyərlər, başqa münasibətlər var idi. O vaxtlar hər şey sanki daha gözəl idi insan münasibətləri, mehribanlıq, qarşılıqlı hörmət üstünlük təşkil edirdi. Bunun bir səbəbi də televiziyanın təqdim etdiyi verilişlər idi. O zamanlar televiziyada ailə dəyərlərini, mədəniyyəti, musiqini təbliğ edən verilişlər yayımlanırdı. İnsanlar sevinə-sevinə baxırdılar. Xalq musiqiləri, muğam sənəti geniş yer alırdı. Şövkət Ələkbərova, Tükəzban İsmayılova kimi sənətkarların çıxışları insanlara estetik zövq verirdi. Amma bu gün televiziyanı açanda çox vaxt xoşagəlməz səhnələrlə rastlaşırıq. Təklif edərdim ki, efirdə daha çox milli-mənəvi dəyərlərə əsaslanan, ailə tərbiyəsini önə çıxaran verilişlər yayımlansın. Məsələn, ailədaxili münaqişələrin deyil, mehribanlığın təbliğ edildiyi proqramlar hazırlanmalıdır. Keçmişdə boşanmalar çox nadir hallarda baş verirdi. Cavanlar bir-birinə daha məsuliyyətli yanaşırdı. Ailə müqəddəs sayılırdı. Boşanma fikri insanlara qorxulu gəlirdi, çünki ailədə sevgi və anlayış var idi. Bu gün isə sanki insanlar ailə həyatını daha asanlıqla qırırlar. Kiçik bir anlaşılmazlıq belə, ayrılığa səbəb ola bilir. Halbuki, ailə dəyərləri güclü olanda bu cür problemlər qarşısında insanlar daha dözümlü olur".



**Şəhər sakini Fariz Səmədov:** "Əslində, hər kəs həyatında hansı ideologiyanın və dəyərlərin ardınca gedirsə, onun yolunu da tutacaq. İnsan hansı dünya görüşünü rəhbər tutur, hansı liderin, hansı siyasi və ya ictimai fəalın düşüncəsinə yaxın olursa, ona uyğun davranacaq. Bəzən baxırıq ki, bəzi televiziya proqramları siyasi yönümlüdür, və bu da təbiidir. Çünki dünya durmadan dəyişir, qlobal siyasətdə elə proseslər baş verir ki, hadisələr bəzən dəqiqələrlə ölçülür. Belə məqamlarda informasiya vasitələrinin, xüsusilə, televiziya verilişlərinin rolu çox böyükdür. Lakin mən bir məsələni də xüsusi vurğulamaq istəyirəm: bəzən texnoloji vasitələrin, yeni cihazların və platformaların verdiyi imkanlar da, təəssüf ki, düzgün istiqamətdə istifadə olunmur. Burada məsuliyyətli yanaşma vacibdir. Həm fərdi istifadəçilər, həm də media qurumları bu güclü vasitələrdən düzgün istifadə etməlidirlər ki, cəmiyyətə müsbət təsir göstərsinlər."



**Şəhər sakini Seymur Əzizov:** "Müasir dövrdə sözə və mediaya qarşı münasibətimiz dəyişməkdədir. Televiziya proqramlarının, xüsusilə də son 15 ildə məzmun baxımından zəiflədiyini müşahidə edirik. Mən deyərdim ki, bu müddət ərzində televiziya tamaşaçılarının sayı təxminən 70% azalıb. Əhali artıq televiziya ilə deyil, əsasən internet vasitəsilə məlumat alır. Halbuki, televiziya bu gün də cəmiyyətə təsir gücünü qorumaqdadır. Çox istərdik ki, televiziya kanallarımız daha səmərəli, maarifləndirici və nümunəvi proqramlara üstünlük versinlər. Elə verilişlər hazırlanmalıdır ki, insanlar ailəliklə ona baxmaq istəyində olsunlar. Təəssüf ki, hazırda bəzi verilişlərdə yalnız məşhur simaların səhnə görüntüləri təqdim olunur, onların şəxsi həyatları və əsl yaşayış tərzləri isə cəmiyyət üçün nümunə ola biləcək formada əks etdirilmir. Əslində, televiziya böyük tərbiyəvi gücə malikdir. Burada qəhrəmanların, elm və sənət adamlarının həyat nümunələri təqdim olunsa, bu, gənclər üçün çox dəyərli bir yol göstərici olar. Biz istəyirik ki, gənclik televiziyaya yenidən maraq göstərsin və bu maraq onlara müsbət təsir etsin. Çünki gənclər gələcəyimizin daşıyıcılarıdır. Bu baxımdan televiziya yalnız əyləncə vasitəsi deyil, həm də sosial siyasət alətidir. Əgər düzgün istiqamət seçilərsə, cəmiyyətin mənəvi və mədəni inkişafında böyük rol oynaya bilər. Xüsusilə də gənclərə yönəlmiş, maarifləndirici, təcrübəvi proqramlara ehtiyac var. Belə proqramlar vasitəsilə gənclərimizi düzgün formalaşdırmaq və sağlam cəmiyyət qurmaq mümkündür".



***Söylü Ağazadə***

# Qurban bayramı:

## mənəvi birlik, xeyirxahlıq rəmzi




Prezident İlham Əliyev: Ümidvar olduğumu bildirirəm ki, saf niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Ulu Tanrının mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır"

***Bu il xalqımız İslam aləmində ən müqəddəs bayramlardan olan Qurban bayramını işğaldan azad olunmuş ərazilərimizdə də qeyd edəcək. Şuşamızda, Ağdamda, Zəngilanda və digər ərazilərimizdə qurbanlıqlar kəsiləcək. 30 ilə yaxın işğal altında qalan ərazilərimizdə xalqımızın milli-mənəvi dəyərlərinə uyğun olaraq Qurban bayramının keçirilməsi hər kəsi qürurlandırır. Xeyirxahlığın, bərabərliyin və fədakarlığın simvoluna çevrilən Qurban bayramını xalqımız qalib bir xalq olaraq qeyd edir. Tolerant mühitdə, multikultural dəyərlərə önəm verildiyi bir dövlətdə. Əlbəttə ki, bu xalqımızın böyük dəyərlərə sahib olmasının daha bir göstəricidir.***

Dünya xalqlarına nümunə olan Azərbaycan multikultural dəyərləri ilə də dünyaya öz modelini nümayiş etdirir. Mənsubiyyətindən, irqindən asılı olmayaraq, bütün insanların sərbəst fəaliyyət göstərdiyi tolerant Azərbaycan. Bu fikirlərin arxasında Azərbaycan həqiqətləri, gerçəkliklərimiz dayanır. Əgər ölkəmizdə 2200-dən artıq məscid, 13 kilsə, 7 sinaqoq və digər ibadət yerləri fəaliyyətdədirsə, deməli, bu, artıq Azərbaycanda tolerant mühitin mövcudluğunu tam əsaslandırır. Ölkədə olan hər bir millətə - ruslara, molokanlara, yəhudilərə, tatlara, saxurlara, udilərə sərbəst yaşama və dinc həyat tərzi sürməsi üçün geniş imkanlar yaradılıb. Tariximizə diqqət etsək görərik ki, dünyanın ən qədim məscidlərindən olan Şamaxı məscidi bizim məkanda hələ 743-cü ildə tikilib. Şəkidə olan Qafqaz Albaniyası kilsəsi tarixin daş abidəsinə çevrilib.

Bu gün ölkə ərazisində olan dini abidələrə dövlətimiz tərəfindən diqqət və qayğı var. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dövləti tarixi-dini abidələrimizin qorunması və yeni dini məbədlərin inşası istiqamətində səylərini əsirgəmir: "Azərbaycan dövlətinin maliyyə dəstəyi ilə bütün dinlərin məbədləri əsaslı şəkildə təmir edilmiş və ya yenidən tikilmişdir. Beləliklə, dinlərarası dialoqun Azərbaycanda qədim tarixi vardır və müasir Azərbaycan dövləti bu ənənələrə sadiqdir".

Qeyd edək ki, işğal altındakı torpaqlarımızda olan 67-i müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Tezliklə dini abidələrimiz təmir və bərpa olunacaq, yeni məscidlər istifadəyə veriləcəkdir. Artıq bu işlərə başlanılıb. İşğaldan azad olunan Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təməli qoyulan yeni məscid dini ocaq və modern memarlıq nümunəsi olacaq. Ötən il iyulun 5-də Heydər Əliyev Fondunun Şuşada Aşağı Gövhər ağada apardığı bərpa işləri başa çatıb. Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin bərpa-təmir işləri aparılır. Tezliklə bu ya digər məscidlərdə dualar oxunacaq, bayram namazları qılınacaqdır.

Azərbaycan xalqı belə tolerant bir mühitdə Qurban bayramını qeyd edir. Mütərəqqi islami dəyərlərə bağlılığı ilə seçilən Azərbaycan xalqının əsrlər boyu, hətta ən mürəkkəb dövrlərdə Qurban bayramını özünün əziz günlərindən biri kimi qoruyub-saxlayıb. Azərbaycan Prezidenti İlham Əliyev müqəddəs Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrikində bildirib ki, dünya müsəlmanlarının mənəvi birlik və vəhdət rəmzi olan Qurban bayramı Uca Yaradanın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi insanları həmişə bərabərliyə, qardaşlığa və fədakarlığa dəvət edir: "Cəmiyyətimizdə humanizmi və xeyirxahlıq duyğularını daha da gücləndirən Qurban mərasimləri hər il Azərbaycanda yüksək əhval-ruhiyyə və təntənə ilə keçirilir. Bu günlərdə dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvar olduğumu bildirirəm ki, saf niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Ulu Tanrının mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır"

Xatırladaq ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən, Qurban bayramı ölkəmizdə dövlət səviyyəsində bayram edilir. Hər il ölkəmizdə dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan Qurban bayramı xeyirxahlıq və mərhəmət duyğularının təcəssümü olmaqla yanaşı, bərabərlik və dözümlülük ovqatını da insanlarda gücləndirir.

Mənbələrdə göstərilir ki, insanları halallığa, paklığa səsləyən Qurban bayramının çox maraqlı tarixi və şərtləri var. Qurban bayramı müsəlman ruhaniləri tərəfindən İbrahim peyğəmbərin (Ə) öz oğlu İsmayılı Allahın şərəfinə qurban kəsmək niyyətini bildirən hadisə ilə əlaqələndirilir. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha inamın, dərin etiqadın nümunəsidir. Bu hadisənin başqa bir fəlsəfi-əxlaqi mənası da ondan ibarətdir ki, islam dinində insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmur. Çünki insan Allahın yaratdığı ən şərəfli və ən üstün məxluqdur. Allah özünün yaratdığını öz yolunda qurban kəsilməsini qəbul etmir. Bu bayramın əsas mahiyyəti Allah yolunda kəsilmiş heyvanın ətini Allahın imkansız bəndələri ilə bölüşmək, onları sevindirmək və sevincinə şərik olmaqdır. Beləliklə, bu bayramın və ayinin də əsasında, xeyirxahlıq, paklıq və Allaha inam və sevgi durur.

İsmayıl Qurbanında kəsilən heyvanlarda bir sıra şərtlər vacib sayılır. Qurbanlıq kimi seçilən heyvan qoç, iribuynuzlu dana, yaxud da dəvə olmalıdır. Nəsil artımında, dişi heyvanların müstəsna rolu olduğuna görə, qurbanlıq heyvanın erkək olması daha üstün tutulur. Qurbanlıq qoçun yaşına gəlincə, bu, ən azı, altı aylıq heyvan olmalıdır. Lakin dana, yaxud dəvənin bir yaşı tamam olsa, daha yaxşıdır. İsmayıl Qurbanında kəsilən heyvanın sağlam olması da vacib şərtdir. Əzalarında hər hansı nöqsanı olan, buynuzunun, yaxud qulağının biri olmayan, axtalanmış heyvanın qurban kəsilməsi islamda məsləhət görülmür.

Qurban kəsiləndə belə deyilməlidir: "Rəbbin üçün namaz qıl və qurban kəs!", "De ki: "Mənim namazım da, kəsdiyim qurban da, həyatım və ölümüm də aləmlərin Rəbbi - Allah üçündür".

Qurban bayramında hər bir imkanlı müsəlman qurban kəsib, onun ətini imkansızlara və kasıblara paylamalıdır. Quranda yazılıb: "Allaha nə ət, nə onun qanı çatmır, ancaq sizin dindarlığınız çatır". Qurban bayramı mənəvi-əxlaqi dəyərlərimizi özündə təcəssüm etdirərək, insanları hallalığa, paklığa və birliyə səsləyir. Bu günlər ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, dövlətimizin firavanlığı və tərəqqisi üçün dualar edilir və şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Dövlət başçısının xalqımıza təbrikində bildirilir ki, vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman övladlarımızın nurlu xatirəsi bu mübarək bayram günlərində dərin ehtiramla yad edirik: "Cəmiyyətimizdə humanizmi və xeyirxahlıq duyğularını daha da gücləndirən Qurban mərasimləri hər il Azərbaycanda yüksək əhval-ruhiyyə və təntənə ilə keçirilir. Bu günlərdə dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvar olduğumu bildirirəm ki, saf niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Ulu Tanrının mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır"

Humanizm, xeyirxahlıq və bərabərlik rəmzi olan Qurban bayramı cəmiyyətimizdə milli-mənəvi həmrəyliyi və dözümlülüyü daha da gücləndirir, insanlar arasında şəfqət və mərhəmət duyğularının təntənəsini nümayiş etdirir.

"Mübarək Qurban bayramı günlərində bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.Mübarək Qurban bayramı günlərində bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram"- deyə təbrikində dövlət başçısı bildirib.

Bu il bildiyimiz kimi, iyun ayının 6-da Qurban bayramı qeyd olunacaq. Qurbanlıq heyvan kəsimi və satışının müvafiq norma və qaydalara uyğun, sağlam və rahat şəraitdə həyata keçirilməsi məqsədilə bu il Naxçıvan Muxtar Respublikası da daxil olmaqla, ölkə üzrə 135 ünvanda qurbanlıq heyvanların satışı və kəsimi xidmətləri təşkil olunub.Həmin satış məntəqələrində baytarlıq nəzarətindən keçmiş və sanitar-gigiyenik tələblər gözlənilməklə kəsilmiş qurbanlıq heyvanlar sifarişçilərə təqdim olunur. Kəsdiyiniz qurbanlar qəbul olsun! Qurban bayramınız mübarək.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Mat", yoxsa "pat"?

## *Rusiya memorandumu Ukraynanı gözləmə rejiminə keçirib*

***Vaşinqtonun İstanbulda Rusiya-Ukrayna danışıqlarının ikinci raundunun nəticələrini Ağ Ev və Dövlət Departamentinin rəsmi açıqlamalarında şərh etməsindən qısa vaxt keçib. ABŞ administrasiyası belə qənaətə gəlib ki, Moskva ilə Kiyev arasında dialoq davam etməlidir və Rusiyaya qarşı sanksiyaların sərtləşdirilməsi hələlik məqsədəuyğun deyil. Respublikaçıların nəzarətində olan ABŞ Konqresinin hazırda Rusiya Federasiyasına qarşı yeni cəza tədbirlərini təsdiqləməyə hazır olmasına baxmayaraq, qanunvericilər prezidentin qərarını gözləyəcəklər. Öz növbəsində, Ağ Evin rəhbəri Ukrayna böhranından tədricən uzaqlaşır, bu böhranın həlli ona heç bir dividend vəd etmir.***

İyunun 2-də Rusiya-Ukrayna danışıqlarının ikinci raundu zamanı öz nümayəndəsini İstanbula göndərməmək və avropalı həmkarları ilə Ukrayna nümayəndə heyəti ilə təmaslarda iştirak etməmək qərarı ABŞ administrasiyasına görüşün nəticələrini və qısa fasilədən sonra Ukraynada münaqişənin sülh yolu ilə nizamlanması perspektivlərini qiymətləndirməyə mane olmayıb. Eyni zamanda, Donald Trampın hadisələrdən sonra verdiyi adi açıqlamalar əvəzinə, Ağ Ev və Dövlət Departamenti iyunun 3-də ətraflı şərhlər verib. Jurnalistlərin ABŞ prezidentinin ikinci









Rusiya-Ukrayna görüşü barədə nə düşündüyünü soruşduqda, Ağ Evin mətbuat katibi Karolin Levitt bütün son hadisələrdən xəbərdar olduğunu və nikbinliyini itirmədiyini xüsusi olaraq vurğulayıb.

"Mən onunla bu barədə səhər danışdım. O, gördüyümüz irəliləyişlərə müsbət yanaşır", - deyən xanım Levitt yalnız Donald Trampın prosesdə şəxsi iştirakından sonra "bir neçə həftə əvvəl hər iki ölkənin liderləri ilə telefonla danışan" Kiyevlə dialoqa başlaya bildiklərinə diqqət çəkib. "Hər kəsə xatırlatmaq istərdim ki, biz cəmi dörd ay ərzində nə qədər irəliləmişik. Keçən ilin bu vaxtında Rusiya və Ukraynanın birbaşa danışıqlar aparması ağlasığmaz olardı və yalnız prezidentin əzmkarlığı və bu müharibəyə son qoymaq qətiyyəti sayəsində bu ölkələr dünən görüşdülər", - Caroline Levitt qeyd edib.

Ona verilən ikinci əsas sual, ABŞ Konqresinin respublikaçı senator Lindsi Qrem qanun layihəsinin qəbulu mexanizmini işə salmağa hazır olduğunu nəzərə alaraq, Rusiyaya qarşı yeni Amerika sanksiyalarının tətbiqinin mümkünlüyü ilə bağlı olub. Caroline Levittin izah etdiyi kimi, Ağ Ev son sözü Donald Trampın deməli olmasından irəli gəlir. "Düşünürəm ki, Senat və Kapitoli təpəsindəki hər kəs Ali Baş Komandan olan Prezidentin fikrinə hörmətlə yanaşır. Prezident bu məsələ ilə bağlı öz mövqeyini ifadə edib və o, lazım gələrsə, sanksiya imkanlarını öz arsenalında bir alət kimi ağıllı şəkildə tərk edib", - Ağ Evin sözçüsü bildirib.

Dövlət Departamentinin sözçüsü Tammy Bruce də Rusiya-Ukrayna danışıqlarının ikinci raundundan sonra ətraflı açıqlama verib. O, ABŞ administrasiyasının İstanbula öz nümayəndəsini göndərməmək qərarını Vaşinqtonun Moskva və Kiyev arasında danışıqlar prosesini xarici oyunçuların, o cümlədən ABŞ-ın iştirakı olmadan ikitərəfli etmək istəyi ilə izah edib. Prezident və dövlət katibinin bəyan etdiyi kimi, bu, indi münaqişə tərəfləri arasında olmalıdır. Xanım Brüs də cavabında müəyyən qeyri-müəyyənliyi saxlamaqla, danışıqlar prosesinin mümkün vaxt çərçivəsi haqqında spekulyasiya etməyə çalışıb. "ABŞ administrasiyası Ukraynada münaqişənin sülh yolu ilə nizamlanması üzrə danışıqlar prosesinin aylarla və ya illərlə uzanmayacağını gözləyir. Görüşlər naminə görüşə icazə verməmək öhdəliyi var", - amerikalı diplomat bildirib.

Eyni zamanda, o, prezident Tramp tərəfindən müəyyən edilmiş Ukrayna nizamlanmasına nail olmaq üçün müəyyən müddətin yaxın həftələrdə başa çatması fikri ilə qəti şəkildə razılaşmır. "Bəzən, təəccüblüdür ki, danışıqlarda siz müəyyən irəliləyiş əldə edirsiniz, sonra isə işlər irəliləyir və siz həqiqətən vəziyyəti dəyişə bilərsiniz", - Dövlət Departamentinin rəsmi nümayəndəsi qeyd edib və danışıqların düzgün istiqamətdə getdiyini açıq şəkildə bildirib. "ABŞ Rusiya və Ukrayna arasında birbaşa danışıqları dəstəkləməkdə davam edir. Biz, əlbəttə ki, dəfələrlə demişik ki, bu münaqişənin hərbi yolla həlli yoxdur və Prezident ədalətli, davamlı və davamlı sülhə gətirib çıxaracaq istənilən mexanizmi dəstəkləyir", - xanım Brüs yekunlaşdırıb.

Bu şərh mayın 20-də ABŞ Senatının Xarici Əlaqələr Komitəsində keçirilən dinləmələrdə dövlət katibi Marko Rubionun verdiyi izahatlardan nəzərəçarpacaq dərəcədə fərqlənir. Sonra Amerika diplomatiyasının rəhbəri qanunvericiləri əmin etdi ki, yaxın gələcəkdə ABŞ administrasiyası Rusiya ilə dialoqu davam etdirməyin və sülh danışıqlarına bel bağlamağın mənası olub-olmaması məsələsində qərar verə biləcək və sanksiyaların tətbiqini çox mümkün variant adlandırıb. Türkiyənin xarici işlər naziri Hakan Fidanla iyunun 3-də baş tutan sonuncu telefon danışığı zamanı həmin Marko Rubio münaqişəyə son qoymaq üçün Rusiya və Ukrayna arasında birbaşa danışıqların davam etdirilməsini dəstəkləyib.

### Rusiya və Ukrayna nizamlanması üzrə danışıqların ikinci raundunu necə keçirib

Öz növbəsində, Amerikanın ABC telekanalı "adları açıqlanmayan Amerika rəsmilərinə" istinadən xəbər verir ki, guya prezident Tramp danışıqların gedişindən məyus olduğu üçün son günlər Rusiya-Ukrayna münaqişəsi mövzusundan getdikcə daha çox uzaqlaşır. ABC mənbələrinin məlumatına görə, Moskvanın iyunun 2-də İstanbulda təqdim etdiyi memorandumda "Ukrayna və Tramp administrasiyasının qeyri-mümkün hesab etdiyi" məqamlar var. Bununla bağlı ABC-nin həmsöhbətləri Moskvanı danışıqlar prosesini pozmağa cəhd etməkdə ittiham edirlər. Trampın əvvəllər kanalı saxta xəbər mənbəyi adlandırdığını və hətta onun lisenziyasının ləğv edilməsini və bütün işçilərin işdən çıxarılmasını tələb etdiyini nəzərə alsaq, ABC-nin insayder məlumatlarının ABŞ prezidentinin mövqeyində baş verən dəyişikliklərlə bağlı nə dərəcədə etibarlı olduğu qeyri-müəyyən olaraq qalır.

Bu arada, iyunun 4-də Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Rusiya-Ukrayna danışıqlarının yeni raundunun tarixləri tərəflər İstanbulda mübadilə etdikləri memorandumların mətnlərini öyrəndikdən sonra razılaşdırılacaq. "Memorandum layihəsini nəzərdən keçirmək bir qədər vaxt aparacaq. Tərəflər hazır olduqları üçün növbəti raund üçün yeni tarixlər barədə razılığa gələcəklər", - cənab Peskov qeyd edib.

"Danışıqlar prosesinin uzanmaması üçün görüşlərin nə qədər tez-tez keçirilməsi" ilə bağlı sualı cavablandıran Kreml nümayəndəsi bildirib ki, təmasların intensivliyi tərəflərin hazırlığından asılı olacaq. "Burada, yəqin ki, çətin ki, hər hansı bir dövriyyə, tutaq ki, standartlaşdırılmış dövriyyə yaradılsın... Əlaqələr qurulur və təmasların qurulması zamanı məqbul müddətlər hiss olunacaq", - deyə cənab Peskov əlavə edib. Rusiya və Ukrayna arasında İstanbul danışıqlarının bərpasına bir neçə saat qalmış Moskvanın məlumatlı dairələrində vəziyyət belə idi. Burada üç əsas məqam var:

1.Rusiyanın strateji bombardmançılarına hücum - nüvə üçlüyünün bir hissəsi - ABŞ və Böyük Britaniyanın birgə əməliyyatıdır (MI6). Texnologiya və strategiya bu ABŞ-Böyük Britaniya ittifaqı tərəfindən təmin edilib.

2. Yüksək səviyyəli bir kəşfiyyat mənbəsi Trampın iştirak edib-etmədiyini söyləməkdə çətinlik çəkdi. O, həmçinin qeyd edib ki, Kreml və təhlükəsizlik xidmətləri bütün variantları fəal şəkildə araşdırır və son "yaşıl işıq" yandıran şəxsi axtarır.

*Ardı Səh. 7*



# "Mat", yoxsa "pat"?

*Rusiya memorandumu Ukraynanı gözləmə rejiminə keçirib*

Əvvəli Səh. 6

3.İctimaiyyətin demək olar ki, yekdil rəyi: Oreshnik raket buraxılış qurğusunu ballistik raketlərlə birlikdə istifadə etmək.

İstanbuldakı danışıqlar, gözlənildiyi kimi, pafoslu və zövqsüz bir tamaşaya bənzədi, təxminən 1 saat 15 dəqiqədən sonra bitdi. Ukrayna nümayəndə heyətinin əksəriyyəti uniforma ilə gəlmişdi və Ukraynanın müdafiə naziri Rustem Umerov hətta orta səviyyədə ingiliscə danışa bilmirdi. Bununla belə, Türkiyə Xarici İşlər Nazirliyi danışıqların "mənfi bitmədiyini" bildirib. Strateji və ya siyasi əhəmiyyətli heç bir şey müzakirə edilmədi, yalnız məhbus mübadiləsi. Bundan əlavə, Moskvada müəyyən əhval-ruhiyyə var idi. Kreml hesab edirdi ki, Rusiyanın əsas müzakirəçisi Vladimir Medinski memorandum yox, ultimatum təqdim etməli idi. Ukrayna bunu hələ də ultimatum kimi qəbul etsə də, Medinski de-fakto ukraynalılara münaqişənin davamlı həlli üçün yol xəritəsi verib. Memorandum atəşkəs şərtlərinin iki variantı və 31 bənddən ibarət üç bölmədən ibarətdir.

Birinci variant Ukrayna Silahlı Qüvvələrinin 30 gün ərzində DXR, LPR, Xerson və Zaporojye vilayətlərindən tam çıxarılmasını nə-



zərdə tutur; Krımın, Donbassın və Novorossiyanın Rusiya Federasiyasının bir hissəsi kimi beynəlxalq səviyyədə tanınması; Ukraynanın neytrallığı; Ukrayna üçün seçkilərin keçirilməsi və sonra BMT Təhlükəsizlik Şurasının qanuni qüvvəyə malik qətnaməsi ilə təsdiq edilmiş sülh müqaviləsinin imzalanması; nüvə silahının əldə edilməsinə və yerləşdirilməsinə qadağa.

Bunların heç biri Kiyevdə ölkəni idarə edənlər və Qərbdəki müxtəlif kollektiv müharibə tərəfdarları tərəfindən heç vaxt qəbul edilməyəcək. Beləliklə, ola bilsin ki, 2026-cı ilə qədər START davam edəcək. İstanbulda danışıqların növbəti mərhələsi iyunun sonuna qədər baş tutacaq. İndi Kiyevin öz suverenliyini qorumaq üçün son şansı var. Rusiyanın xarici işlər naziri Sergey Lavrov qeyd edib ki, hər şey son nəticədə döyüş meydanında həll olunacaq.

## Yeni START müqaviləsini necə məhv etmək olar?

Rusiyanın strateji bombardmançı təyyarələrini uçuş zolağında niyə müdafiəsiz qoyması ilə bağlı sual dəfələrlə qaldırılıb. Çünki bu, 2010-cu ildə imzalanmış və 2026-cı ilin fevralına qədər uzadılmış Yeni START Müqaviləsinin tələbidir. Lakin son hadisələri nəzərə alsaq, bu müqavilə təhlükə altında ola bilər. Yeni START Müqaviləsi strateji bombardmançıların milli texniki yoxlama vasitələrinə (peyk görüntüləri) görünməsini nəzərdə tutur. Buna görə də, onların statusu - nüvə silahı ilə təchiz edilmiş və ya adi şəraitdə istifadə üçün konvertasiya edilmiş - həmişə yoxlanıla bilən olmalıdır. Bu sürpriz ilk zərbənin qarşısını alacaq.

Ötən həftəsonundan əvvəl Rusiyada 58 Tu-95MS var idi. Onlardan beşi geri qaytarıla bilməyəcək şəkildə itirilsə belə, bu hələ də onun donanmasının 10%-dən azını təşkil edir. Bura 19 Tu-160 və 55 Tu-22M3M daxil deyil. Hücum beş hava bazasını hədəf aldı, lakin onlardan yalnız ikisində zərər qeydə alınıb. Bu itkilər nə qədər ağrılı olsa da, Rusiya Aerokosmik Qüvvələrinin gələcək zərbələrinə təsir etməyəcək. T-95MSM-in standart silahı Kh-101 qanadlı raketidir. Hər missiya üçün maksimum səkkiz. Son zərbələr zamanı bir anda 40-dan çox raket buraxılmayıb. Bu, yalnız altı Tu-95-in iştirak etdiyi deməkdir. Əvvəlki günlərdə və həftələrdə olduğu kimi eyni intensivlikdə zərbələr endirmək üçün Rusiyaya yalnız altı döyüşə hazır Tu-95MSM lazımdır. Əslində, Tu-160-lar son zərbələrdə belə istifadə olunmayıb.

## Son strategiyanın qiymətləndirilməsi

Rusiya hələ də hərbi obyektlərinə edilən hücumlara görə cavab verməyib. Bu, çox ciddi bir vəziyyətdir. ABŞ prezidentinin baş verənlərdən xəbəri olmasa belə (Kreml və xüsusi xidmət orqanları Kiyevə cəhənnəmi buraxmazdan əvvəl buna tam əmin olmaq istəyir), hələ də aydındır ki, söhbət ABŞ və Böyük Britaniyanın iştirakı ilə NATO-nun birgə əməliyyatından gedir. Bunu açıq şəkildə CIA və MI6 həyata keçirib. Bu, Trampa ağlabatan bəhanə gətirəcək və Ukrayna START protokolunu ciddi şəkildə pozmuş olacaq.

Əgər Tramp bu zərbələrə icazə versəydi, bu, ABŞ-ın Rusiyaya müharibə elan etməsinə bərabər olardı. Buna görə də, ən çox ehtimal olunan ssenari Trampın neokonservatorlar tərəfindən ehtiyatsız tutularaq, Beltway boyunca imtiyazlı bunkerlərində gizlənməsidir. Voronej-M radarına hücumda olduğu kimi, Rusiyanın strateji bombardmançılarına zərbə də ilk nüvə zərbəsindən əvvəl onu məhv etmək üçün Rusiya sisteminə artan təzyiqin sübutudur. İddialı "Dr. Strangeloves" onilliklərdir ki, bu ssenarini ən çılğın fantaziyalarında təsəvvür edir. Rusiya hakimiyyətinin ən yüksək eşelonlarında üstünlük təşkil edən fikir ondan ibarətdir ki, bu, Rusiyanın sərt, bəlkə də nüvə reaksiyasına, eləcə də Moskvanın İstanbul danışıqlarından çıxmasına səbəb ola biləcək planlaşdırılmış "PR kampaniyasıdır".

İndiyə qədər Rusiyanın reaksiyası kifayət qədər metodik olub: tam susqunluq, geniş miqyaslı araşdırma və İstanbulda rəsmiyyətlərin başa çatdırılması. Cavab vermək üçün diqqətlə düşünülmüş strategiya tələb olunacaq. Əgər cavab yenilənmiş nüvə doktrinasına uyğun olarsa, Moskva Qlobal Cənub ölkələrinin demək olar ki, yekdil dəstəyini itirmək riski ilə üzləşir.

Cavab zəif olarsa, ölkə daxilində geniş narazılıq yaranacaq. Demək olar ki, hamı yekdilliklə Oreşniklərin Ukraynaya zərbə endirməsini dəstəkləyir. Rusiya ictimaiyyəti ardıcıl terror aktlarının hədəfinə çevrilməkdən yorulub. Əhəmiyyətli bir qərar vermək vaxtı qaçılmaz olaraq yaxınlaşır.

Bu da bizi əsas dilemmaya gətirir. Rusiya hakimiyyəti III Dünya Müharibəsini başlatmadan kollektiv şəkildə döyüşən Qərbi məğlub etməyin yollarını axtarır. Qədim Çin müəllifləri Sun Tzu və Lao Tzunun əsərlərini birləşdirib yenidən düşünməklə həll yolu tapmaq olar. Düşməni məhv etmək və onu sonsuz müharibə aparmaq qabiliyyətindən və istəyindən məhrum etmək üçün bir yol - və ya bir neçə yol tapmaq lazımdır.

## Tramp: Putin zərbəyə dronlarla cavab verəcək

ABŞ prezidenti Donald Tramp deyib ki, Rusiya prezidenti Vladimir Putin çərşənbə günü telefon danışığında Ukraynanın Rusiya aerodromlarına pilotsuz uçan aparatlarının son hücumuna görə qisas alacağını vəd edib ki, bu da Trampın ABŞ-ın atəşkəsə nail olmaq səylərini çətinləşdirdiyini deyib. Tramp sosial mediada bir saatdan çox davam edən söhbət haqqında yazıb: "Yaxşı söhbət oldu, lakin dərhal sülhə gətirib çıxaracaq söhbət deyil. Prezident Putin çox sərt şəkildə dedi ki, o, aerodromlara edilən son hücuma cavab vermək məcburiyyətində qalacaq".

Tramp həmçinin qeyd edib ki, tərəflər İranla nüvə danışıqlarını müzakirə ediblər və Rusiya prezidenti də davam edən diplomatik prosesə cəlb oluna bilər. "Prezident Putin İranla danışıqlarda iştirak etməyə və ola bilsin ki, onların yekunlaşmasını sürətləndirməyə kömək etməyə hazır olduğunu bildirib", - Tramp bildirib. "İnanıram ki, İran bu kritik məsələdə ayaqlarını sürükləyir və bizə tezliklə aydın cavab lazımdır!" Trampın rusiyalı həmkarı ilə zəngi Putinin dörd ildir davam edən münaqişəyə son qoymaq səyləri çərçivəsində Zelenskinin birbaşa yüksək səviyyəli danışıqlar aparmaq təklifini rədd etdiyi gün olub. "Biz bu şərtlər altında bu cür görüşləri necə keçirə bilərik? Nə danışaq?" Putin hökumət rəsmiləri ilə televiziya görüşü zamanı deyib.

Bundan başqa, bir neçə saat əvvəl İranın ali dini lideri Ayətullah Əli Xamenei ABŞ-ın rəhbərlik etdiyi nüvə sazişini tənqid edib və ABŞ rəsmilərini İranın uranı zənginləşdirməyi dayandıracağını gözlədikləri üçün "təkəbbürlü" adlandırıb. İran və ABŞ aprel ayından bəri Tehranın nüvə proqramı ilə bağlı gərgin qarşıdurmaya son qoymaq üçün Omanın vasitəçiliyi ilə beş raund danışıqlar aparırlar.

**V.VƏLİYEV**

## Gənclər sosial təsir üçün yarışdı - Trendyol və PAŞA Holding ideya marafonu təşkil etdi



Dünyanın aparıcı elektron ticarət platformalarından biri və Türkiyənin aparıcı e-ticarət platforması Trendyol, PAŞA Holding ilə birlikdə "Sosial təsir üçün Hakaton" ("Hackfor-socialimpact") adlı rəqəmsal ideya marafonu (ideyaton) təşkil edib. Tədbir PAŞAHolding-in "Əlaçı" təqaüd proqramının 100-ə yaxın məzununu bir araya gətirib.



Təşəbbüsün məqsədi sosialyönümlü fəaliyyəti təşviq etmək, sosial təsir yaradan rəqəmsal həllərin formalaşmasına şərait yaratmaq, inklüzivliyin təmin olunmasına dəstək vermək, sosial və ekoloji maarifləndirmə aparmaq idi. Marafona qatılan komandalar müxtəlif sahələri əhatə edən və xüsusilə həssas əhali qruplarının həyat keyfiyyətinin yaxşılaşdırılması məqsədi daşıyan innovativ ideyalar üzərində çalışıb, sosial məsələlərə yaradıcı və texnoloji əsaslı həll yolları axtarıblar.

Tədbirin sonunda daha innovativ və sosial təsir gücü böyük olan ideyalar mükafatlandırılıb. I yerəlilliyi olan şəxslərin şəhər daxilində təhlükəsiz və müstəqil hərəkətini asanlaşdıran "YoldAlq" adlı ağıllı mobil tətbiq layihəsi ilə "SocioSapiens" komandası layiq görülüb. II yeri "Mindsbridge" komandası məişət zorakılığına məruz qalan qadınlara psixoloji yardım və reabilitasiya dəstəyi təklif edən "SƏS" platforması ideyası ilə qazanıb. III yeri isə "QayğıBot"- yaşlı və sosial baxımdan təcrid olunmuş şəxsləri dəstəkləmək məqsədi daşıyan innovativ layihəilə"Thundersbolt" komandası tutub.

İdeya marafonunda qalib komandalar Trendyol tərəfindən təltif olunublar. Trendyol fəaliyyət göstərdiyi ölkələrdə dayanıqlılıq və sosial təsir proqramları ilə cəmiyyətə töhfə verir. PAŞA Holding-in korporativ sosial məsuliyyət (KSM) strategiyasında təhsil mövzusu mühüm yer tutur. Trendyol və PAŞA Holding birlikdə bu istiqamətdə müxtəlif layihələr həyata keçirirlər.

# “Qurtuluş Günü Azərbaycan xalqının müqəddəratını həll edən hadisə oldu”




“Hər bir xalq yaratdıqlarına görə tarixə düşür. Hər bir tarixi şəxsiyyət də xidmətlərinə görə tanınır və dillər əzbəri olur. Azərbaycan xalqı da tarix boyu ədalətinə və tolerantlığına görə dünya xalqları içərisində böyük nüfuz qazanıb”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib.O bildirib ki, dünyanın qədim dövlətləri sırasında yer alan Manna, Albaniya, Atropatena öz müstəqilliklərini qorumaq üçün düşmənə hər cür müqavimət göstərmiş və bu gün xalqımızın öyünməsi üçün şərəfli bir tarix miras qoymuşlar: ”Orta əsrlərin Eldənizlər, Qaraqoyunlu, Ağqoyunlu və nəhayət, Səfəvilər dövləti Müsəlman Şərqinin qüdrətli dövlətləri sırasında yer ala bildilər. Səfəvilər bir az da irəli gedərək imperiya yaratmağa nail oldular. Azərbaycan xalqı bu dövlətin yaradıcısı Şah İsmayıl Xətaini min illərdir ki, tariximizin qəhrəmanı kimi anır və müstəqilliyimiz dövründə onun şərəfinə abidələr ucaldır. Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları olan milli-demokratik ziyalılarımız Müsəlman Şərqində ilk parlamentli Respublikanın bünövrəsini qoyaraq tarixə düşdülər. 23 ay yaşayan bu dövlət 350 ilkə imza atmağa müvəffəq oldu.1920-ci ilin aprelindən sonra Azərbaycan müstəqil dövlət kimi yox, müttəfiq dövlət kimi fəaliyyət göstərdi. Hər bir müttəfiq respublika nəhəng Sovet dövlətindən yararlanmaq istəyirdi.

Bu daha çox müttəfiq respublikaya rəhbərlik edən şəxsin bacarığından asılı idi.Heydər Əlirza oğlu Əliyev 1969-cu il iyulun 14-dən Azərbaycana rəhbərlik etməyə başladı. Həmin ilin martında Mərkəzin tapşırığı ilə Azərbaycan Ali Soveti Rəyasət Heyəti dörd min kvadrat kilometr Azərbaycan torpağının Ermənistana verilməsi haqqında qərar çıxardı. Heydər Əliyev hakimiyyəti dövründə bu qərarın icra olunmasına imkan vermədi. 1919-cu ildə əsası qoyulan Bakı Dövlət Universitetinin 50 illik yubileyi 1969-cu ildə keçirildi. Yubiley toplantısına rəhbərlik edən Heydər Əliyev öz nitqinə Azərbaycan dilində başladı. Bu o dövr üçün çox böyük siyasi hadisə idi. Heç kimin ağlına gəlmirdi ki, rus dilinin hökm sürdüyü bir dövrdə müttəfiq respublikanın Birincisi öz doğma dilində məruzə edə bilər. Amma Heydər Əliyev bu çıxışı etdi və xalqının ürəyində özünə rəğbət qazandırdı. Azərbaycanı aqrar ölkədən sənaye-aqrar ölkəsinə çevirən Respublikanın Birincisi ölkədə hərbi məktəb yaratmaq üçün uzun illər mübarizə apardı və nəhayət 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılmasına nail oldu. Azərbaycanda mükəmməl ziyalı ordusu yaratmaq üçün hər il minlərlə Azərbaycan gəncini ölkənin ən nüfuzlu ali məktəblərinə göndərməyə nail oldu. 1977-ci ildə SSRİ-nin növbəti Konstitusiyası qəbul edildi. Məqsəd ondan ibarət idi ki, müttəfiq dövlətlər milli dil məsələsində israr etməsinlər. Heydər Əliyev Mərkəzin bütün təzyiqlərinə baxmayaraq, 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunmasına nail oldu. Heydər Əliyevə qədər Azərbaycan xalqının milli sərvəti olan neft və qaz qonşu respublikalara onların sərvəti kimi verilirdi. Heydər Əliyev Mərkəzin bu siyasətini müəyyən qədər respublikanın xeyrinə dəyişməyə nail oldu. Heydər Əliyevə qədər hərbi xidmətə çağırılan azərbaycanlı gənclərin demək olar ki, əksəriyyəti tikinti batalyonlarına göndərilirdi. Heydər Əliyev bu sahədə də dönüş yarada bildi. Azərbaycanlı gənclər də müasir silahlarla təzhiz edilən hərbi hissələrdə xidmət etməyə başladılar. Azərbaycan neftinin gələcək taleyini uzaqgörən siyasəti ilə müəyyən edən Heydər Əliyev Dərin Özüllər zavodunun tikilməsinə nail oldu. Azərbaycan yenidən öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Heydər Əliyevin bu sahədə uzaqgörən siyasətinə heyran olmamaq olmur.Azərbaycanı uğurlu və bacarıqlı siyasəti ilə müttəfiq respublikalar arasında birincilərdən edən Heydər Əliyev Sovet dövlətinin idarəçiliyində də böyük xidmətləri olmuşdur. Heydər Əliyev yeganə türk-müsəlmandır ki, 70 ildən çox fəaliyyət göstərən bu dövləti idarə edənlərdən biri oldu. Əgər imkan versəydilər, bu dövləti idarə edən birinci şəxs də ola bilərdi. Sovet dövlətinin süqutundan sonra Heydər Əliyev Moskvada yox, Azərbaycanda öz xalqının yanında olmaq istəyirdi. 1990-cı il 20 yanvar qırğını göstərdi ki, Azərbaycan xalqı köməksiz vəziyyətdədir. Xalqın tələbi ilə hakimiyyətin istəyi üst-üstə düşmürdü.

Düşmən tərəf öz havadarlarının gücündən istifadə edərək Azərbaycanın tarixi torpaqlarına sahib olmaq istəyirdi. Hakimiyyət bunları fikirləşə bilmir, Heydər Əliyevin Azərbaycana dönüşünü əngəlləmək üçün planlar hazırlayırdı.Azərbaycandan uzaq düşən Naxçıvan ağır blokada həyatı yaşamaqda idi. Heydər Əliyev Naxçıvanın harayına çatdı, bütün çətinliklərə sinə gərərək, bölgəni işğal təhlükəsindən qurtara bildi. Muxtar respublikanın əhalisini inandıra bildi ki, Naxçıvanın bir qarış torpağını düşmənə güzəştə getməyəcək. Bakıda hakimiyyət uğrunda mübarizə qızışan vaxtda Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzlərinin bərpası haqqında Naxçıvan Ali Məclisinin qərarını qəbul etdi, sovet sosialist ifadəsindən imtina etdi.1991-ci ilin oktyabında dövlət müstəqilliyinin bərpası haqqında qəbul edilən Konstitusiya Aktı 1993-cü ilin yayında çətin günlərini yaşayırdı. Düşmən Şuşanı, Laçını, Kəlbəcəri işğal etdi, Qarabağ və ətraf rayonlar üçün böyük təhlükə yarandı. 20 yanvar qırğınının mahiyyətini dünyaya çatdırmamış, Xocalı soyqırımını yaşamağa məcbur edildik. Vətəndaş müharibəsinin ilk işartıları Azərbaycanı təhdid etməyə başladı. Hakimiyyət hərisləri ölkəni parçalamaq və işğal təhlükəsi ilə üz-üzə qoydular. Hamı, hətta siyasi hakimiyyət də ümidini Naxçıvana bağlayır və nicatını Heydər Əliyevin Bakıya dönüşündə görürdü. Heydər Əliyev xalqın təkidli tələbi ilə Azərbaycanı parçalanmaq və yox olmaq təhlükəsindən qurtarmaq üçün Bakıya gəldi. Düşmən yeni torpaqlar işğal edə bilməsin deyə, Azərbaycan Xalq Cümhuriyyətinin acı taleyini yaşamamaq üçün güclü dövlət başçısına, cəsarətli Ali Baş Komandana ehtiyac var idi. 1990-cı ildə Naxçıvanda yenidən qaldırılan və bütün Azərbaycana şərəf gətirən üç rəngli bayrağı əbədi etmək üçün Heydər Əliyevə hava və su qədər ehtiyac var idi. Heydər Əliyev xalqın köməyinə gəlməli idi və gəldi. İllərlə rəhbərlik etdiyi xalqının ən çətin günlərində onun yanında oldu. Heç bir təhlükə və heç bir təhdid onu yolundan döndərə bilmədi. Heydər Əliyev parçalanmaq təhlükəsi ilə üz-üzə dayanan dövlətimizin başına keçdi və bu yolda əngəl olan bütün qüvvələri öz zəngin təcrübəsi və bacarığı ilə aradan qaldırdı. Heydər Əliyev həyatına təhlükə altına ataraq Gəncədə dövlətə asilik edən qüvvələrlə görüşdü. Dövlət müstəqilliyinə xələl gəlməmək üçün bütün qüvvələri əmin-amanlığa dəvət etdi və çətinliklə də olsa buna nail oldu. Heydər Əliyev 15 iyuna gələn yolu xilas etdiyi kimi, 15 iyundan sonra da şərəfli bir tarixin əsasını qoydu. Ölkədə daxili sabitliyə nail oldu, dövlət çevrilişlərə cəhdləri zərərsizləşdirdi, təcavüzkar Ermənistanla atəşkəsə nail oldu. Türk-müsəlman dünyasının heç bir uğuruna sevinməyən Qərb Ermənistanın Azərbaycana təcavüzünə haqq qazandırır və Qarabağın işğalına hər cür yardım göstərirdi. Heydər Əliyev Ermənistanın təcavüzkar dövlət olmasını və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi üçün bütün qapıları döydü və dünyanın diqqətini Qarabağ probleminə cəlb etdi. Ürmənistanın təcavüzünə haqq qazandıran xeyli dövləti neytrallaşdıra bildi, Qarabağın tarixi Azərbaycan torpağı olması haqqında mövcud mənbələrin dövriyyəyə cəlb olunmasına və dünya dillərinə çevrilməsinə nail oldu.Heydər Əliyev Bakı neftini dünya bazarına çıxarmaq üçün yollar axtarırdı. Bu məsələdə Azərbaycana yardım Qərb şirkətləri tərəfindən göstərilə bilərdi. Çünki Rusiya iqtisadi cəhətdən zəif, neftin dənizdən müasir üsullarla çıxarılmasına hazır deyildi. Qərb dövlətləri də müharibə girdabına salınan Azərbaycana investisiya qoymaq fikrində deyildi. Amma Heydər Əliyev qərb şirkətləri ilə aparılan danışıqlarda böyük qələbəyə imza atdı.Birincisi, Xəzər dənizindən neftin çıxarılmasına, ikincisi çıxarılan neftin Gürcüstanın üstündən Türkiyəyə çatdırılmasına dair razılığa nail oldu.

Beləliklə, ” Əsrin müqaviləsi”ni imzalamaqla Heydər Əliyev Qərbin himayəsini qazandı, Xəzər dənizində neftin çıxarılmasına küllü miqdarda sərmayə qoyan qərb şirkətləri Heydər Əliyevin timsalında Azərbaycandan möhkəm yapışdılar. Bu, Heydər Əliyev siyasətinin uzaqgörənliyi idi. Heydər Əliyev Azərbaycanı təhdidlərdən qorumaq üçün Müstəqil Dövlətlər Birliyinə üzv qəbul olunmasına razılıq verdi. Çünki Azərbaycanın müstəqilliyinə qarşı təhlükə hələ sovuşmamışdı. Azərbaycanın daxilində bəzi siyasi qüvvələr xaricdən müdaxilə üçün yollar axtarır və dövlət çevrilişlərinə cəhd etdilər. Lakin Heydər Əliyevin dövlətçilik təcrübəsi, qətiyyəti və Azərbaycan xalqının onun ətrafında birləşməsi düşmən qüvvələrini məğlub etdi. 1990-cı il 20 yanvar və Xocalı soyqırımına siyasi qiymət verməyə, 31 Martın azərbaycanlıların soyqırımı günü kimi təsbit olunmasına, azərbaycanlıların Ermənistan SSR-dən deportasiya olunması haqqında fərmanların verilməsi Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev düşmənə qarşı mübarizə üçün tarixi sənədlərə müraciət etməyə üstünlük verdi. İxtisasca tarixçi olan Heydər Əliyev ermənilərin tarix boyu azərbaycanlı əhaliyə qarşı törətdiyi soyqırımları arxiv sənədləri əsasında dövriyyəyə cəlb etdi. Bu istiqamətdə çoxsaylı əsərlərin yazılmasına və xarici dillərə tərcümə olunmasına nail oldu. Erməni məkrini və qəddarlığını dünyaya bəyan etmək üçün 1948-1953-cü illərdə Qərbi Azərbaycanda azərbaycanlı əhalinin başına dövlət səviyyəsində gətirilən müsibətlər işıq üzü görməyə başladı. Heydər Əliyev Azərbaycanda ölüm hökmünün və senzuranın ləğv edilməsinə, ATƏT-in Lissabon Sammitində bu beynəlxalq təşkilatın 54 üzvündən 53-nün (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın milli maraqlarına uyğun prinsiplərin açıq şəkildə müdafiə olunmasına, Azərbaycanın Avropa Parlament Şurasına üzv qəbul olunmasına, müstəqil dövlətin ilk Konstitusiyasının yaradılmasına və ilk parlament seçkilərinin keçirilməsinə, Aqrar islahat həyata keçirməklə torpağların təmənnasız olaraq kəndlilərə verilməsinə, qonşu dövlətlər, o cümlədən dünyanın nüfuzlu dövlətləri ilə balanslaşdırılmış siyasətin həyata keçirilməsinə, dünyanın, o cümlədən BMT-nin ali tribunasından Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin ifşa olunmasına, Ordu quruculuğu sahəsində uğurlar qazanmaq və düşməni torpaqlarımızdan çıxarmaq üçün ali hərbi məktəblərin yaradılmasına nail oldu.Heydər Əliyev Azərbaycançılıq ideologiyasının və ”Bir millət, iki dövlət” konsepsiyasının həyata vəsiqə almasına, Azərbaycanın müstəqilliyini əbədi etmək üçün bütün gücünü və bacarığını bu işə yönəltməyə nail oldu. Heydər Əliyev dönə-dönə qeyd edirdi ki, tarix boyu Azərbaycan çoxmillətli olub. Bu xalqların xoşbəxtliyi ordadır ki, onlar hər zaman Azərbaycan uğrunda mübarizədə bir olublar. Dil və din fərqi onları bir-birindən ayırmayıb, ən çətin günlərdə bir-birinə hayan olublar. Azərbaycançılıq düşüncəsi əsrlər boyu bu torpaqda yaşayan xalqları bir ideya ətrafında birləşməyə müvəffəq olub. Heydər Əliyev bu ideyanı hakim ideologiya səviyyəsinə qaldırmağa müvəffəq oldu. 44 günlük Vətən Müharibəsində Azərbaycan xalqı Ali Baş Komandan ətrafında dəmir yumruq kimi birləşərək düşməni darmadağın etdi, torpaqlarımızı işğaldan azad etdi. Heydər Əliyev türk dünyasının birləşməsi üçün əlindən gələni etdi. Əslində ”bir millət, iki dövlət” konsepsiyası bütün türk dünyasının birləşməsinə xidmət edən bir çağırış idi.Qərbin ədalətsiz siyasətinə qarşı türk dünyasının birləşməsinə və dünyanın mizan-tərəzisinə rəhbərlik etməyinə ehtiyac var. Bünövrəsi Heydər Əliyev tərəfindən qoyulan bu siyasət Azərbaycanın dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev xalqımızın xoşbəxt gələcəyi üçün mümkün olanları etdi. 15 iyundan başlanan çağdaş tariximiz xalqımızı qalib xalqların cərgəsinə daxil etdi. Qurtuluş Günü Azərbaycan xalqının müqəddəratını həll edən hadisə oldu” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***



ŞƏHLİYALI BS 1996

Halal Nemət 1000 Bərəkət Halal Nemət

Azərbaycan xalqını
Müqəddəs Qurban Bayramı
münasibəti ilə təbrik edirik.
Allah etdiyiniz duaları və
kəsdiyiniz qurbanları qəbul etsin!

*Hörmətlə, "Səhliyalı" MMC-nin direktoru*
*Rövşən Səmədov*





# Kanada nəşri Azərbaycana qərəzli münasibətinə görə "BBC"ni qınayıb




**"BBC" kimi qlobal nüfuza malik media qurumunun Azərbaycana qarşı ərazi iddiaları irəli sürən Ermənistana tərəfkeşlik etdiyi görünür.**

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, bu fikir Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru, tanınmış jurnalist və siyasi şərhçi Reyçel Avrahamın Kanadanın populyar "THEJ.CA" nəşrində dərc olunan "BBC-nin qərəzi üzə çıxdı: Ermənistanı dəstəkləmək, qlobal yayımda İsraili ləkələmək" sərlövhəli məqaləsində yer alıb.

Müəllif məqaləni "dünyanın ən nüfuzlu yayım orqanlarından birinin faktların təhrifi yolu ilə Qafqaz və Yaxın Şərqdəki münaqişələrdə fikir ayrılıqlarını alovlandırmasına dair araşdırma" adlandırıb.

Qeyd olunub ki, dünya mediasında saxta xəbərlər qlobal fenomenə çevrilib. Təəssüf ki, bu vəziyyət "BBC" kimi tanınmış və nüfuzlu media orqanına da sirayət edib. "BBC"də bu yaxınlarda yayımlanan "Ermənistan Qafqazda Silikon Vadisi qurmağa necə çalışır?" sərlövhəli məqalə bu xüsusda hər şeyi deyir. Məqalədə Ermənistanın texnoloji startapları cəlb etmək "səyləri"ndən və bu tip digər mövzulardan bəhs olunması gözlənildiyi halda əsas diqqət üç "LED" işığına qoşulmuş qutu yaradan 9 yaşlı erməni uşağına ayrılıb. Reyçel Avraham bu situasiyada məqalənin əsl məzmununu tamamilə təhrif edən başlığın seçilməsini Ermənistanı şöhrətləndirmək cəhdi kimi qiymətləndirib.

İsrailli politoloq sözügedən məkrli başlıq seçimindən əlavə, "BBC"nin məqaləsində həm Qafqazda, həm də xaricdə Azərbaycanın tərəfdarlarının hiddətinə səbəb olan məsələlərdən birinə diqqət çəkib: "2,7 milyon əhalisi ilə dənizə çıxışı olmayan Ermənistan Cənubi Qafqaz regionunda ən kiçik ölkədir və qonşuları Azərbaycan və Türkiyə ilə sərhədləri həll edilməmiş ərazi mübahisələrinə görə onilliklər ərzində bağlıdır". Daha sonra bununla bağlı tutarlı iradlar bildirilib. Ermənistanın coğrafi mövqeyinə, dənizə çıxışının olmamasına görə Azərbaycan və Türkiyənin məsuliyyət daşımadığını qeyd edərək, həmin məsələ ilə bağlı vacib suallar ünvanlayıb: "Ermənistan sahil xəttinəmi köçürülməlidir? Yoxsa onun sərhədləri Xəzər dənizinə, Qara dənizə, hətta Aralıq dənizinə doğrumu genişləndirilməlidir? Bəlkə "BBC" Ermənistanın hər üç dənizə çatmağına üstünlük verir?!". Müəllif erməni təbliğat orqanında deyil, neytral olması gözlənilən nüfuzlu Britaniya media qurumunda yer alan belə bir iddianı ciddi qəbul etməyi problemli məsələ adlandırıb.

Yazıda "BBC"nin qərəzli davranışının təkcə Azərbaycanla məhdudlaşmadığı, onların dünyagörüşünü bölüşməyən digər ölkələrə, o cümlədən İsrailə də şamil edildiyi diqqətə çatdırılıb.

# Söz, fikir, məlumat azadlığının təminatında Azərbaycan lider dövlətlərdəndir

***Azərbaycan müxtəlif istiqamətlərdə daim dinamik inkişafda olan bir ölkə olaraq, dünyanın əksər ölkələrindən fərqləndiyi kimi, söz və mətbuat azadlığı sahəsində də bir çox ölkələrdən irəlidədir və bu heç də təsadüfi, heç də səbəbsiz deyil. İlk növbədə unutmaq lazım deyil ki, ölkəmizdə hər bir vətəndaşın belə müstəqil fikir bildirmək, məlumat, eləcə də ifadə azadlığı və hüquqları var. Söz, fikir və məlumat azadlığının qorunması məqsədi ilə ölkəmizdə qanunvericilik bazasının olması həmin hüquqların mövcudluğu, eləcə də təmin olunduğu və söz, fikir, məlumat azadlığının olması deməkdir.***




Söz, fikir, məlumat azadlığı təmin olunmadan, yəni informasiya cəmiyyətinin fundomental prinsipi təmin olunmadan demokratiyadan da, plüralizmdən də, azad cəmiyyətin tərəqqisindən də danışmaq mümkün deyil. Bütün bunların təminatı üçün isə ilk növbədə əlbəttə ki, həmin sahəni tənzimləyən qanunların olması və dövlət tərəfindən qorunması gərəkir, hansı ki, ölkəmizdə bu sahədə ilkin təminat məhz konstitusiyamıza əsaslanır. Təsadüfi deyil ki, Azərbaycanda medianın inkişafı, söz, fikir, məlumat azadlığının təminatı üçün qanunvericilik normaları da qəbul edilib, institusional mexanizmlər də, bu istiqamətdə inkişafa təkan verən qurumlar belə formalaşdırılıb və bu baxımdan gələcək üçün də nikbin proqnozlar verilməsi üçün məntiqi əsas var.

Ölkəmizdə fikir, söz, məlumat və mətbuat azadlığı sahəsində qanunvericilik bazası mövcud olsa da, həmin qanunvericilik bazasının təkmilləşdirilməsində Ulu Öndər Heydər Əliyevin misilsiz rolu əlbəttə ki, danılmazdır. Xüsusilə diqqətə çatırmaq yerinə düşərdi ki, Ümummilli Liderimiz hakimiyyətə gəldikdən sonra ilk gördüyü işlərdən biri məhz söz və mətbuat azadlığı sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi oldu və bu gün məhz həmin bazadan bəhrələnməkdəyik. Bu gün ölkəmiz məhz söz, fikir, məlumat, eləcə də mətbuat azadlığının olduğu ölkələrdən sayılır və demokratik ölkə olaraq beynəlxalq miqyasda tanınır. Çünki fikir, söz, məlumat, mətbuat azadlığı məhz demokratiyanın əsaslarındandır. Məhz bu baxımdan da fikir, söz, məlumat, mətbuat azadlığı və nəticə də demokratiya olmayan, bütün cəmiyyətin eyni şəkildə ifadə olunmasına çalışan ölkələr demokratik ölkələr sırasında sayılmırlar. Əksinə, qeyri-demokratik ölkə hesab olunurlar və müasir, inkişad etməkdə, dəyişilməkdə, hətta qloballaşmaqda olan dünyamızda məhz həmin dəyişikliklərlə ayaqlaşan demokratik dövlətlərə uduzurlar və rəqabətə də tab gətirə bilmirlər, geridə qalırlar, inkişaf edə bilmirlər. Bütün bu məqamları nəzərə aldıqda görürük ki, ölkəmizin dünya miqyasında, qlobal səviyyədə inkişaf etməsi, inkişafda olan ölkələrlə rəqabətə dayanıqlı olması həm də Azərbaycanda söz, fikir, məlumat, mətbuat azadlığının, ümumiyyətlə, demokratiyanın olduğubu bir daha təsdiqləyir.

Dünyanın bir çox ölkələri özlərini demokratik ölkə, söz, fikir, məlumat azadlığı olan ölkə olaraq təqdim etməyə çalışlalar da, reallıqda heç də belə deyil. Xüsusən də, Avropa ölkələrinin bir çoxunda belə hələ də söz azadlığı, fikir, mətbuat azadlığı özlərinin təqdim etdikləri kimi deyil. Bu gün dünyaya məhz dırnaq işarəsi altında "demokratiya dərsi" keçməyə çalışan ölkələrin bir çoxunda demokratiyadan, söz və məlumat azadlığından əsər-əlamət yoxdur. Məsələn, Fransa kimi bir Avropa ölkəsində insanların küçələrə çıxaraq ölkə hakimiyyətinin qərarlarına qarşı etiraz etməsi həmin ölkə rəhbərliyi tərəfindən qətiyyən qəbul edilmədiyi haqda kifayət qədər faktlar var. Hər halda, etirazçıların Paris küçələrində rezin güllələrə "hədəf" olaraq seçilməsi, gözyaşardıcı qazdan, yüksək təzyiq altında təsiredici su şırnaqlarından istifadə edilməsi, etirazçıların üzərinə itlərin buraxılması və bir çox hallar dünya ictimaiyyəti üçün heç də sirr deyil. Yaxud da, İspaniyada öz hüquqlarını tələb etmək üçün etiraz aksiyaları təşkil edən katalonlara qarşı hansı təzyiqlərə əl atıldığı da hamıya bəllidir. Avropanın bir çox dövlətləri üçün bu kimi hallar kifayət qədərdir və yetərincə misallar gətirmək olar. Amma belə hesab edirik ki, sadalananlar belə yetərlidir və məqsəd sadəcə olaraq, müqaisələr aparmaqdır. Yəqin ki, dünya ictimaiyyəti bizim ölkəmizdə insanların, daha dəqiq desək, az sayda müxalifət qüvvələrinin meydanlara yığışmasına zərrə qədər də maneə olmadığını müşahidə ediblər. İnsanların azad şəkildə toplaşmalarına, fikir bildirmələrinə hansısa maneələrlə bağlı bircə dənə də olsa fakt yoxdur. Əksinə, əvvəla, hansısa narazılıq barədə ölkəmizdə diqqət cəlb edə bilən məqam yoxdur. Digər tərəfdən də əgər etiraz, narazılıq olsa belə, buna qarşı avropalıların rastlaşdıqları hansısa güc tətbiq olunması mümkün deyil.

Hazırda Azərbaycanda demokratiyanın ən parlaq təzahürü hesab olunan söz, fikir, məlumat və mətbuat azadlığının olduğunu təsdiq edən məqamlardan biri də məhz internetə, sosial şəbəkələrə əlçatanlığın yüksək səviyyədə olmasıdır. Hər bir vətəndaş üçün sosial platformalardan istifadə son dərəcə asandır. Heç bir məhdudiyyət qoyulmayıb. Son dərəcə azadlıq verilib. Hətta bəzən bu azadlıqdan məhz qanundan kənar, qəbul olunmuş normalardan uzaq bəzi sui-istifadə halları, məsələn, təhqir kimi hallar da olur. Sözsüz ki, bu hallar ilk növbədə ictimai qınağa tuş gəlir, amma təbii ki, qanunla çərçivəsində də, hüquqi müstəvidə də tənzimlənir. Daha dəqiq desək, insanların, vətəndaşların haqq və hüquqlarının pozulmasına yol verilməməsi nəzərə alınır. İstənilən halda, ölkəmizdə azad söz, fikir, məlumat, mətbuat azadlığı, bir sözlə, insan azadlıqları qorunmaqdadır və demokratiyanın olmasına zərrə qədər də şübhə edilməsi mümkün deyil.

Sadalananlar onu deməyə əsas verir ki, söz, fikir, məlumat azadlıqlarının, eləcə də plüralizmin bundan sonra da inkişafı barədə nikbin proqnozlar verməkdə hər kəs haqlıdır. Ələlxüsus da ona görə ki, fikir, ifadə, məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi dövlət rəhbərinin, Azərbaycan Prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Bu məqam isə cəmiyyətimiz, ələlxüsus da media nümayəndələri tərəfindən yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin keçirdiyi sorğu əsasında cənab Prezident İlham Əliyev "Jurnalistlərin dostu" mükafatına layiq görülüb, hansıki bu, azad sözlə, fikir və məlumat azadlığına, mətbuatın inkişafına ölkə rəhbərinin göstərdiyi diqqət və qayğıya media ictimaiyyətinin baxışı və verdiyi dəyərin göstəricisidir. Məhz bu dəyərə istinad edərək, cəsarətlə deyə bilərik ki, bundan sonra da söz, fikir, məlumat azadlığının təminatında Azərbaycanın lider dövlətlərdən biri kimi davamlı şəkildə qəbul edilməsinə ümid etməyə dəyər.

***İnam Hacıyev***

# BMT-də erməni vəhşiliyi müzakirə oluna bilər

Dünya tarixinə nəzər yetirdikdə məlum olur ki, bəşəriyyətdə yaşamış və hazırda yaşayan millətlər arasında ən təhlükəlisi erməni toplumudur. Ona görə yox ki, ermənilərin gücü və cəsarətli mübarizə üsulları var, birmənalı şəkildə vurğulamaq olar ki, erməni toplumu qorxaq və cəsarətsizdir. Bu səbəbdən də onlar terror vasitələrindən istifadə edir və bu yolla mövcudluqlarını qoruyub saxlamağa çalışırlar. Terror vasitələrindən istifadə etməklə ermənilər son iki yüz il ərzində iki milyona yaxın azərbaycanlının həyatına son qoyublar, yüzlərlə şəhər və qəsəbələri, kəndləri dağıdıblar. Ötən əsrin 90-cı illərində ermənilər Rusiyanın dəstəyi ilə Qərbi Azərbaycan ərazilərindən 250 mindən artıq soydaşımızı yurd-yuvasından didərgin saldı, yüzlərlə insan qəddarlıqla öldürüldü, yaşayış binalarını, əraziləri vəhşicəsinə dağıdıb, viran etdilər. Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 1948-ci ildə qəbul etdiyi Konvensiyaya görə insanların kütləvi şəkildə məhv edilməsi, deportasiya və bu qismdən olan cəza aksiyaları soyqırımı sayılmalıdır. Buna görə də 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" və 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanları imzalandı. Təəssüflər olsun ki, dünya birliyi ermənipərəst mövqe nümayiş etdirdiyindən ermənilərin törətdiyi bəşəri cinayətləri soyqırımı aktı olaraq tanımada tərəddüdlər edir. Bu da erməniləri daha böyük miqyasda terror aktları törətməyə həvəsləndirir.



Xocalı 1992 Füzuli 2017 Gəncə 2020

## Terror ermənilərin öz mövcudluqlarını saxlamaq üçün istifadə etdikləri vasitədir

Tarixi reallıq ondan ibarətdir ki, smüxtəlif zamanlarda ermənilər amansız terror təşkilatları yaradıblar. Onların arasında "Daşnakstyun", "Asala", "Hnçak" və digər terror təşkilatları xüsusi qəddarlıqları ilə seçiliblər.

Erməni millətçiləri 1887-ci ildə Cenevrədə "Hnçak" terror təşkilatını, 1890-cı ildə isə Tiflisdə "Daşnakstyun" təşkilatını yaratmağa nail olmuşlar. Erməni tədqiqatçısı Luis Nalbandyana görə "Hnçak" proqramında deyilirdi: "Təbliğat və terror xalqın "ruhunu yüksəltmək" üçün lazımdır. İnsanlar öz düşmənlərinə qarşı yönəlməli və onların cavab hərəkətlərindən "faydalanmalıdırlar". Terror insanların müdafiə üsulu və "Hnçak" proqramına inam qazanmaq üçün istifadə olunmalıdır. Osmanlı hökumətinə qarşı terrordan istifadə edərək, partiya bu vasitə ilə rejimin nüfuzunu aşağı salırdı və dövlətin dağılmasına çalışırdı. Hökumət özü terrorçuluq taktikasının tək mərkəzi olmamalı idi. "Hnçak" üzvləri hökumətə işləyən erməni və türklərin çoxunu məhv etmək istəyirdi. Bütün terror aktlarının yerinə yetirilməsi üçün xüsusi fövqəladə komitələr yaradılmalı idi. Bunu təxirə salınmaz məqsədlərə çatmaq və üsyanın baş verməsi üçün Türkiyənin müharibəyə başı qarışdığı zamanı əlverişli hesab edirdilər". K.S.Papazyan "Daşnakstyun" terror təşkilatının hədəf və məqsədləri barədə yazırdı: "Daşnakın məqsədi iğtişaşlar və terror vasitələri ilə Türkiyə və Azərbaycan ərazilərində istəklərinə nail olmaq idi. Terror daşnakların siyasətdə istədiklərinə çatmaq üçün istifadə edilməlidir. "Daşnakstyn" terror təşkilatının proqramında yazılır: "Erməni Üsyan Federasiyası (Daşnak) öz məqsədinə çatmaq üçün üsyan qrupları yaradır. 8-ci məcəllə dövlət işçilərinə qarşı terrorçuluğa, 11-ci məcəllə isə dövlət müəssisələrinin talan və məhv edilməsinə həsr olunmuşdur". "Daşnakstyn" terror təşkilatının əsasını qoyanlardan və ideoloqlarından biri, doktor Cin Loris-Melikoff yazırdı: "Həqiqət bundan ibarətdir ki, partiyanı ("Daşnak" komitəsi), partiyanın maraqlarını xalqın və millətin maraqlarından üstün tutan oliqarxiya idarə edir. Əvvəlcə onlar burjuaziya və iri tacirlər arasında idi. Nəhayətdə onlar bütün vasitələrdən istifadə edərək rus üsyançılarından "vasitə məqsədə bəraət qazandırır" şüarını əxz edərək sonda terrora keçdilər".

## Vəhşilik və terror əməlləri Qafqazda böyük qırğınlara səbəb oldu

Erməni daşnak millətçilərinin "böyük Ermənistan" ideyasını həyata keçirmələri ilə bağlı təbliğatları Qafqaz bölgəsini milli qırğınlara gətirib çıxarmışdır. 1905-1906-cı illərdə Bakıda, Naxçıvanda, İrəvanda, Zəngəzurda, Gəncədə və Cənubi Azərbaycanda bu qırğınlar davam etmişdir. Erməni daşnaq quldur dəstələri 1905-ci il noyabrın 28-də Qarabağ bölgəsinin şəhər və kəndlərini yandıraraq, uşaqlara, qadınlara və qocalara qarşı görünməmiş vəhşiliklər törətmişlər.Erməni quldur dəstələri yalnız Şuşa,Cavanşir və Cəbrayıl qəzalarında 75-ə qədər Azərbaycan kəndini, İrəvan və Zəngəzur quberniyalarında isə 200-dən çox yaşayış məntəqəsini dağıtmış əhalini vəhşicəsinə qətlə yetirmişlər. Erməni terrorçuları hələ 1904-cü ilin sentyabrında Bakı şəhərində bir neçə azərbaycanlını qətlə yetirmişlər. Bu qətllər isə ermənilər tərəfindən xəbərdarlıq xarakteri daşımışdır. 1905-ci il fevralın 5-də erməni terrorçu dəstələri Bakı qəzası Sabunçu kəndinin sakini Ağarza Babayevi öldürmüşlər. Qətl iğtişaş yaratmaq məqsədilə törədilmişdir. Elə həmin gün erməni quldur dəstələri realnı və texniki məktəblərin 7-ci sinif şagirdləri Yakov Lebedivi və İvan Volkovu öldürmüşlər. Erməni alimi C. Libardyanın yazdığına görə 1904-1906-cı illər ərzində erməni terrorçuları 105 terror aktı törətmişlər. Bunların 86-sı azərbaycanlılar, digərləri isə türk məmurlarına və zabitlərinə qarşı olmuşdur.

1905-ci ilin fevralın 6-da Bakıda Mixaylov xəstəxanasının sənədlərinə görə erməni milyonçuları Balabek Lalayevin, Artyom Babayantsın, İsay Ter Osipovun və başqa maqnatların havadarlığı sayəsində terror qrupu 68 azərbaycanlını öldürmüş və 33 nəfəri yaralamışdır. 1905-ci ilin fevralın 7-də erməni terror təşkilatı Bakıda 100-dək dinc vətəndaşımızı öldürmüş və yaralamışdır. Erməni quldur dəstələri 1905-ci ilin fevralın 9-da Bakı sakinlərini qətl və qarətlərə məruz qoymuşdular. Erməni dəstələri kütləvi qırğınlar törətdikdən sonra varlı ermənilərin (Balabek, Lalayev, Artyom Babayants, Akop Muradyan, Karen Saakyants və b.) evlərinə yığışmış, onların pəncərələrindən və damlarından şəhərin küçələrinə atəş açmış,ingilis, fransız istehsalı olan bombalar, qumbaralar atmışlar. 1905-ci ilin qırğınları tarixə "Bakı şəhərində qanlı qətliam" kimi düşmüşdür.




"Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının idarə etdiyi quldur dəstələri 1905-ci ilin 20-21 fevralında İrəvan şəhərinin azərbaycanlı sakinlərinə qarşı insanlığa yaraşmayan hərəkətlər edərək qırğınlar, vəhşiliklər etmişlər. Dinc əhalinin vəhşicəsinə öldürülməsi bu amansız hadisənin şahidlərini dəhşətə gətirmişdir.

## Erməni terrorçuları çoxlu sayda qadın, qoca və uşağı öldürdülər

1905-ci il mayın 11-də Bakı şəhərində baş erməni terrorçusu Qafqaz xalqları arasında dostluq əlaqələri ruhunda çıxış edən knyaz M.A. Nakaşidzeni və Q. Takiyeskilini qətlə yetirdilər. Bu hadisəni şahid R.R. Subinski öz xatirələrində qeyd etmişdir ki, qatillərdən biri erməni Dro ləqəbli Drastamat Xanayan idi. Bu hadisələrdən əvvəl Dro Zəngəzur mahalında erməni quldur dəstələrinin tərkibində dinc azərbaycanlılara qarşı qanlı qırğınlarda yaxından iştirak etmişdi. Erməni daşnak quldarları 1905-ci ilin mayın 24-də İrəvan quberniyasında dinc azərbaycanlılara atəş açdılar. Qarşılıqdan istifadə ermənilər on bir qadın, on iki uşaq və on beş kişini qətlə yetirdilər. Bu qanlı hadisələrdən doymayan erməni quldur dəstələri 1905-ci ilin mayında Naxçıvan torpağına hücum edərək dinc əhaliyə qarşı qanlı divan törətdilər. Çoxlu sayda qadın, qoca və uşağı öldürdülər. Ermənilər 1905-ci ildə Zəngəzur bölgəsində də onlarca adam öldürülmüş, evlərə od vuraraq yandırmışlar. Bütün silah növləri ilə təmin olunmuş erməni quldur dəstələri 1905-ci ilin 2 iyununda Mənkus müsəlman kəndinə hücum etmişlər. Silahsız kəndlilər ailələrini götürüb qaçmağa məcbur olmuşlar. Kənddə qoca və əlil olan 80 yaşlı bir sakin erməni quldurlarının əlinə keçmişdir. Erməni quldurları şişləri qızdıraraq işgəncələr verməklə onu öldürmüşlər. Bu vəhşiliklərini ermənilər 1988-1989-cu illərdə Ermənistan torpaqlarından qovulan azərbaycanlılar üzərində də həyata keçirmişdilər. Erməni daşnak dəstələri 1905-ci il iyunun 8-də İrəvan yaxınlığındakı Eçmiədzin qəzasındakı Uşu azərbaycanlı kəndini mühasirəyə almış, buranı işğal etdikdən sonra kişilərin başlarını kəsmiş, südəmər uşaqları süngülərə keçirmişlər. Bu basqın zamanı kəndin məscidi yandırılmışdır. Ermənilər səhərisi Eçmiədzin qəzasındakı Persi, Nazzevan, Kiçik kənd, Kötüklü, Qoşabulaq və İrgu azərbaycanlı kəndlərini də yandırmış, məscidlərə od vurmuş və insanlığa yaraşmayan hərəkətlər edərək murdarlamışlar. Erməni daşnaq dəstələri öz çirkin əməllərindən əl çəkməyərək 1905 -ci ilin avqustun sonlarına yaxın Bakı əhalisinə qarşı dəhşətli qırğınlar törətdilər. 1905-ci ilin avqustun 8-də 300-dən çox erməni daşnakı Şuşa qəzasının Vənd kəndinin karvan dəstələrinə hücum etdilər. Çoxlu tacir öldürüldü, əmlakçıları talan edildi. Kəndin sakini Abbas bəyin oğlunu,qardaşını və bir neçə nökərnaibini qətlə yetirdilər.

## Ermənisiz Qafqaz qurula bilərmi?

Erməni terrorçu dəstələri 1905-ci il noyabrın 21-də Tiflis əhalisinə qanlı və amansız divan tutaraq onları vəhşicəsinə qətlə yetirmişlər. Qirğında çoxlu sayda azərbaycanlı da işgəncələrlə öldürmüşlər. 1906-cı ilin yanvarın 1-dən erməni daşnak dəstələri azərbaycanlı kəndi Papravəndə hücuma keçdilər. Kənd işğal olundu, insanları qılıncla yarıldılar, hələ dünyaya gəlməmiş körpələrin başlarını vurdular. Qırğına erməni quldur, qulağı kəsik Andranik Ozanyan başçılıq edirdi. Hələ əsrin əvvəllərində Rusiyanın Ərzurumdakı konsula general Q.Mayevski onun haqqında yazmışdı: "1901-ci il qışın əvvəllərində Andranik adlı birisinin erməni quldur dəstəsi Muş həndəvərində peyda olmuşdur".

1906-cı il iyulun 12-də erməni quldur dəstələri yaxınlığındakı erməni kəndlərindən 10 min nəfərə yaxın dəstə ilə Şuşa üzərinə hücuma keçdilər. Ərazidə döyüşlər beş gün davam etdi. Bütün evlərə bombalar yağdırıldı. Südəmər körpələri beşiklə birlikdə yandırır, anaların başını daşa çırpırdılar. 1905-1906-cı illərdə erməni bandaları Qarabağın yüzlərlə kəndini yerlə-yeksan etmişdilər. Bu dəstələr 1906-cı il iyulun 29-da azərbaycanlıların Karxana kəndinə hücum etdilər. Silahsız kəndlilər ermənilərə müqavimət göstərə bilmədilər. Kəndin bütün kişiləri erməni vandalları tərəfindən öldürüldü. Qaçıb təpəliklər arxasında gizlənmiş 30 qadın və uşağın yerini ermənilər dərhal müəyyən etmişlər. Buna səbəb gənc ana Pakizənin uşağının ağlaması olmuşdur. Hətta tarix bu körpə qızın adını da saxlamışdır-Firuzə. Qadınlar və uşaqlara da aman verməyərək onları qəddarcasına qətlə yetirmişlər. Belə bir vəhşi toplum təəssüflər olsun ki, Qafqazda mövcudluğunu qoruyub, saxlamaqdadır. Nə qədər ki, ermənilər bu bölgədə varlıqlarını qoruyub, saxlayırlar, bu diyar heç zaman sakitlik tapmayacaq. Yetər ki, bu vəhşi toplum Qafqazdan deportasiya olunsun, yalnız o halda bu diyar sakitlik və sabitlik adasına çevriləcək. Ona görə də, Qafqaz xalqları bir araya gəlməli və ermənisiz Qafqazın qurulması üçün təcili BMT-də müzakirələrin aparılması çağırışı irəli sürülməlidir. Əgər demokratik düşüncəli dünya xalqları beynəlxalqa aləm də sülhün, təhlükəsizliyin təmin olunmasına dəstək verərlərsə, o zaman heç bir mübahisələrə yol vermədən BMT-də erməni vəhşilikləri və ermənisiz Qafqaz qurulması istiqamətində müzakirələr aparıla bilər.

**İLHAM ƏLİYEV**

# Günümüzdə uşaqlar rəqəmsal mühitdə hansı əsas təhlükələrlə qarşılaşırlar?







**Narkotiklər üzrə Vyana QHT Komitəsinin üzvü, ”Gənclərin Anti-Narkomaniya” İctimai Birliyinin sədri Büllur Məmmədovanın SİA-ya müsahibəsini təqdim edirik:**

***- Büllur xanım, ilk olaraq soruşmaq istərdik: Sizcə günümüzdə uşaqlar rəqəmsal mühitdə hansı əsas təhlükələrlə qarşılaşırlar?***

- Əvvəllər uşaqların təhlükələrlə




qarşılaşması əsasən real mühitdə baş verirdi. Amma bu gün texnologiyanın sürətli inkişafı ilə onlar həm də rəqəmsal mühitin risklərinə məruz qalırlar. Kibercinayətlər, zorakılıq, yalnış məlumatlar, fırıldaqçılıq, psixoloji təzyiqlər və təəssüf ki, narkotik maddələrin dolayısı və ya bilavasitə təbliği bu risklər arasındadır. Uşaqlar bəzən fərqinə varmadan bu təhlükələrin içində olur və bu, onların psixoloji və fiziki sağlamlığına ciddi təsir edir.

***- Rəqəmsal mühitdə narkomaniya necə təbliğ olunur? Bu necə baş verir?***

- Bu çox incə və gizli bir prosesdir. Sosial şəbəkələrdə bəzi ”influencer”lər və ya məxfi hesablar narkotik maddələri ”əyləncə”, ”azadlıq”, ”stressdən çıxış” kimi təqdim edirlər. Bəzən bu mesajlar musiqi videoları, komik səhnələr və ya motivasiya kontenti içində gizlədilir. Uşaqlar isə bu mesajları təhlükə kimi deyil, ”trend” kimi qəbul edirlər. Həmçinin ”dark web” vasitəsilə narkotik maddələrin satışına dair gizli linklər, forumlar və şəbəkələr mövcuddur ki, buraya çıxış bəzən sadəcə bir klik qədər asandır.

***- Valideynlər və müəllimlər bu risklərin qarşısını almaqda necə rol oynaya bilərlər?***

- Ən vacib məsələ informasiyalı olmaq və uşaqlarla düzgün ünsiyyət qurmaqdır. Valideynlər təkcə texniki nəzarətlə kifayətlənməməlidirlər. Uşağın kimlərlə yazışdığını, nə izlədiyini bilmək vacibdir, amma daha önəmlisi ona güvənli və açıq bir mühit təqdim etməkdir ki, o, problem yaşasa, çəkinmədən valideyninə və ya müəlliminə müraciət etsin. Məktəblər isə rəqəmsal savadlılıq dərslərini tədris etməli, internet təhlükəsizliyi ilə bağlı interaktiv tədbirlər təşkil etməlidir.

***- Bəs qeyri-hökumət təşkilatları bu prosesdə necə dəstək verə bilər? GANİB bu sahədə hansı təşəbbüslərlə çıxış edir?***

- GANİB olaraq, biz daim bu istiqamətdə maarifləndirici layihələr həyata keçiririk. Məktəblərdə və gənclər mərkəzlərində ”rəqəmsal təhlükəsizlik”, ”narkomaniyaya yox!”, ”təhlükəsiz internet - sağlam gələcək” kimi təlim və seminarlar keçiririk. Bundan əlavə, sosial mediada uşaq və yeniyetmələrə yönəlmiş pozitiv kampaniyalar aparırıq. Məqsədimiz odur ki, gənclər özləri də bu mübarizəyə qoşulsun və həmyaşıdlarına nümunə olsunlar. Çünki bəzən bir gəncin ”mən narkotikə yox deyirəm” mesajı yüzlərlə insanın düşüncəsini dəyişə bilər.

- Gələcəkdə bu təhlükələri azaltmaq üçün hansı tədbirlər görülməlidir?

- Gələcəyə baxaraq bir neçə istiqaməti qeyd etmək istərdim:

1. Milli səviyyədə rəqəmsal təhlükəsizlik strategiyası hazırlanmalı və məktəblərdə tətbiq olunmalıdır.
2. Valideynlər üçün maarifləndirici platformalar və təlimlər təşkil olunmalıdır.
3. Uşaqlar üçün rəqəmsal təhlükələri öyrədən oyunlar və tətbiqlər hazırlanmalıdır.
4. Hüquq-mühafizə orqanları rəqəmsal narkotik şəbəkələrinə qarşı monitorinq sistemlərini gücləndirməlidir.
5. Beynəlxalq əməkdaşlıq qurulmalıdır, çünki rəqəmsal təhlükələr sərhəd tanımır.

- Çox təşəkkür edirik, Büllur xanım. Uşaqların təhlükəsiz gələcəyi naminə etdiyiniz işlər və bölüşdüyünüz fikirlər üçün minnətdarıq.

- Mən təşəkkür edirəm. Unutmayaq ki, rəqəmsal mühitdə uşaqların müdafiəsi bütöv cəmiyyətin məsuliyyətidir. Gəlin birgə şəkildə onları qorumağa davam edək!

***Söylü Ağazadə***



**MƏTANƏT**

# Qurbanı da qurban verdik...

***Ay dolandı il oldu, yenə də Qurban bayramı gəldi. Mübarək olsun. Allah hər kəsin bayramını qutlu etsin, bütün arzuları, diləkləri çin, canları sağ, nəsibləri xoşbəxtlik olsun.***

Bəli, Qurban bayramı gəlib çıxdı. Lakin hər Qurban bayramında axtardığım sualların cavabı bu Qurban da gəlib çıxmadı. Bayramdan söz düşmüşkən, biz bütün bayramlara, necə deyərlər, əl gəzdirmişik. Məsələn, götürək Novruzu, bu bayramın başına nə oyunlar qalmayıb açmayaq... Hərəmiz bildiyimizi əlavə etmişik bu bayrama ki, Novruz hər il bunlarla qarşılaşanda özü məəttəl qalır ki, İlahi, bunlar nədir? Vallah, Novruzun öz zənginliyi özünə bəsdir, onun yandançıxma, qondarma işlərə ehtiyacı yoxdur. Nədən söhbət açdığımı yəqin ki, bilməyən də yoxdur.

Bir az da Ramazandan danışaq. Bu bir aydır, ayın fəziləti Allah yolunda oruc tutmaq, ibadət etmək, ayın sonunda da bu on bir ayın sultanını möhtəşəm bayramla yekunlaşdırmaqdır. Biz nə edirik? Ramazanla bağlı min bir kəşf ortaya çıxarırıq. Ay oruc adam bunu etməz, onu danışmaz, o yeməyi yeməz, o sudan içməz və sair. Hələ bunlar bir yana qalsın, orucu arıqlamaq üçün vasitəyə çevirmişik ki, ta bundan danışmaq istəmirəm. Çünki uzun söhbətdir.

Budur, Qurban da gəlib yetişdi. Qurbana nələr əlavə etmişik, nələri ixtisar etmişik, bax, bunlar maraqlıdır. İllərdir ki, oxuyuram, dinləyirəm, bu bayramın əsl qayda-qanunu haqqında müfəssəl məlumat ala bilmirəm ki, bilmirəm.

Mənim üçün maraqlıdır, görəsən qurban harada, necə, kim tərəfindən, günün hansı saatında kəsilməlidir, bu bir. İkincisi, qurbanlıq olaraq hansı heyvan kəsilə bilər. Axı biz Allah-təalanın İsmayıla göndərdiyi qoçla yanaşı, dana, inək, qoyun, hündüşqa, xoruz, toyuq da kəsirik. İlahi, görəsən, əslində bunların hansı kəsilməlidir? Üçüncüsü, qurban əti kimlərə verilməlidir? Bu əti hamı pulla alıb yeməlidirmi, bu, hökmən vacibdirmi? Bəs minlərlə imkansız, həmin gün ət ala bilməyən insanlar var. Onlar bu bayram günü nə etməlidirlər? Yadımdadır, haradasa 20-25 il öncə kişilər var idi ki, Qurban bayramına saxladığı mal-heyvan arasından birini qurbanlıq üçün ad edirdi, ya da ki, Qurbana bir neçə ay qalmış bir heyvan alıb kökəldirdi ki, həmin gün öz hesabına kəsib imkansız insanlara paylasan. Görəsən indi necə?

Məni düşündürən digər məsələ. Qurban günü nişanlı qızlara aparılan qoçların bəzədilməsi. Qoç bizdə kişilik rəmzidir. Görəsən onun boynuna, hətta buynuzlarına da qırmızı lentin bağlanması, üzərinə qırmızı boyanın çəkilməsi, ayaqlarına qırmızı papışın geyindirilməsi nə qədər düzdür? Bunu bilən varmı? Yenə qoyuna bəzək vurmağın yeri ola bilər. Lakin yazıq qoç bu işgəncəyə necə dözür, çox maraqlıdır. Beləliklə, Qurbanı da qurban etmişik

Beləliklə, maraqlıdır, biz nə üçün hər il özümüzdən bir hoqqa çıxarırıq. Niyə olanlarımızı olduğu kimi qoruyub saxlamırıq? Görəsən səbəb nədir, kimlərin əlləri var bu bayramlara edilən əlavələrdə? Nə maraq güdürlər, nəyə nail olmağa çalışırlar? Kaş ki, elə bir adam çıxardı ki, meydana məni, mənim kimi yüzlərlə insanı düşündürən bu suallara bir açıqlama gətirərdi, məsələləri çözə bilərdi.

İnşallah, o adamı gözləyirik. Çıxsın meydana, bizim bu bayramlar əslində necə olmalıdır, onların hansı günündə hansı əməllər vacibdir, hansı artıqdır, danışsın, hamımız da biləк. Bir də ki, bu hoqqaları törədənləri qınasın, onlar da xahiş edirəm eşidib hoqqabazlıqdan əl çəksinlər. Heyifdir bu bayramlarımız...

# Qurban əti: nələri bilməliyik?..

***İstər Qurban bayramında, istərsə də gündəlik həyatda əti necə gəldi istifadə edə bilmərik. Çoxlarımız bəlkə də deyərik ki, burada nə problem ola bilər ki, ətdir də, alırsan, bişirirsən və yeyirsən. Xeyr, məsələ heç də düşündüyümüz kimi deyil. Xüsusilə də Qurban bayramında təzə kəsilən ətlə bağlı mütəxəssis fikirləri vardır ki, onlara əməl etməklə düzgün qidalana, sağlamlığımızın qeydinə qala bilərik. Mütəxəssislər Qurban bayramında kəsilən heyvanların ən az 1 gün dincəlməsinin lazım olduğunu vurğulayır, uzunmüddətli saxlama üçün dondurucilardan istifadənin vacib olduğunu söyləyir.***



Qurban bayramında sağlam qidalanmanın mühüm tərkib hissəsi olan ət məhsulları istehlakının artmasını nəzərə alan mütəxəssis ətin saxlanma şəraiti, istehlakı və düzgün bişirilmə üsullarının da vacibliyinə diqqət çəkir. Onlar qurban ətinin lazımi şəraitdə saxlanılmaması, yaxşı bişirilməməsi nəticəsində insan sağlamlığına mənfi təsir göstərdiyini bildirir, ifrazat və həzm sisteminə təsir edən parazit növü lent qurdunun bakteriya ilə insan orqanizminə keçdiyini, az və ya çiy bişmiş ət istehlakı və pis gigiyena şərtləri ilə bulaşdığını qeyd edir. Mütəxəssislər eyni zamanda bayramda ətlə yanaşı, şirniyyat istehlakının da artdığını bildirərək bunu diqqətdə saxlamağı, həmçinin daha çox maye qəbulu və idmanla məşğul olmağı məsləhət bilirlər.









## Qida zəhərlənməsi ola bilər

Qurban bayramında ətin istehlak edilməsi və düzgün şəraitdə saxlanması vacibdir. Ona görə də yeni kəsilən ət ideal olaraq sərin şəraitdə 24 saat dincəlməlidir. Xüsusən də mədəsində problem olan insanlar bu məsələdə diqqətcil olmalıdır. Saxlanma şəraiti və bişirmə üsulları ilə yanaşı, ətin istirahət etməməsi bəzi problemlərə səbəb ola bilər. Belə ki, əti yaxşı və düzgün bişirməsək, orada çoxalan bakteriyalara görə qida zəhərlənməsi və ya istəmədiyimiz sağlamlıq problemi ilə qarşılaşa bilərik. Ətdən uzun müddətli istifadəni düşünürüksə, dərin dondurucularda mənfi 18 dərəcədə saxlanılmalıdır.

Ancaq qısa müddətdə istifadə olunacaqsa, mənfi 2 ilə 4 dərəcə arasında bir neçə gün saxlanıla bilər. "Tape qurd" dediyimiz qurd bağırsaq florasını pozur və arzuolunmaz nəticələrə səbəb ola bilər. Bu səbəblə tədbir görməkdə fayda var.

Ətin manqalda, sobada və qaynadılmış üsullardan istifadə edərək bişirilməsi məsləhət görülür. Yüksək yağlı və yüksək temperaturda bişmiş ətin zülal strukturu da pisləşir. Tərkibindəki vitamin dəyərləri də ölür. Yağda bişirilməsi məsləhət görülmür. Mütəxəssislər bəzi insanların səhər yeməyi zamanı da ət istehlak edə biləcəyini nəzərə alıb bunu yalnız qovurma ilə etməyi uyğun görmürlər. Tövsiyə edirlər ki, Qurban bayramı günlərində süfrələrdə standart olaraq pendir, zeytun, yumurta və digər məhsullar olsun, səhər yeməyi də həmişəki kimi eyni şəkildə yeyilsin.

## Diyetoloqlar məsləhət bilir ki...

Qurban bayramında etibarlı nöqtələrdə satılan qurbanlara üstünlük verilməsinin vacib olduğunu bildirən dietoloqlar bayram günlərində təkcə ət deyil, şirniyyat istehlakının da artdığını və digər məsələləri nəzərə alıb məsləhət görürlər ki:

- Əgər insanın, ümumiyyətlə, qida istehlakında xroniki xəstəlikləri varsa, istər ət, istərsə də şirniyyat olsun, buna uyğun istehlak etməlidir. Bayram günlərində xüsusilə şirniyyatlar bir az çox ola bilər. Ziyarətə getdiyimiz yerdə şirniyyat verilir və təbii ki, ondan imtina etmirik. Təbii ki, imtina edə bilmərik, amma payın miqdarına diqqət yetirək. Şərbətli desertlərin porsiya ölçüsü daha vacibdir.

-Südlü desertlərə müraciət etsək, daha faydalı olar. Maye ilə birlikdə tərəvəz istehlakına böyük diqqət yetirməliyik. Ətdən aldığımız dəmir və digər vitaminlərin orqanizmə daha tez inteqrasiyasını təmin edən lifli qidalar və tərəvəzlərdir.

-Əgər manqalda ət bişiririksə, onu yalnız oda çox dəymədən istisini alacaq şəkildə bişirməyimiz, kömürlə təmas etdirməməyimiz vacibdir. Əks halda qida zəhərlənməsi ilə qarşılaşa bilərik.

-Ətin saxlanma şəraitini düzgün həyata keçirə bilməsək, o, məhv olar, mütləq buna diqqət yetirməliyik. Tutaq ki, dondurduq, ətdən istifadə edəcəyik, əridikdən sonra onu yenidən saxlamağa imkanımız olmayacaq. Biz əti yenidən dondurmağa meyil etdikdə onun strukturunu pozuruq və sağlamlıq baxımından problemli olur.

-Qurban bayramında qida istehlakımız artacağı üçün idmana, gəzintilərə üstünlük verilməlidir. Gün ərzində ən azı yarım saat, 40 dəqiqə piyada gəzmək məsləhətdir.

***Mətanət Məmmədova***

# İqor Korotçenko: ”Fransa Ermənistan vasitəsilə Rusiya və Azərbaycana zərər vurmağa və Cənubi Qafqaza ”nəzarət” etməyə çalışır”

***Xəzər Strateji Araşdırmalar İnstitutunun (Rusiya) baş direktoru İqor Korotçenko ”Moskva-Baku” portalına müsahibəsində Fransa ilə Ermənistan arasında getdikcə güclənən tərəfdaşlığı şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***











***- İqor Yuryeviç, iyunun 2-də Ermənistanın Azərbaycanla həmsərhəd Sünik rayonunun Gorus şəhərində Fransanın fəxri konsulunun ofisi açılıb. Həmin gün Gorusda Ermənistan və Fransa arasında mərkəzləşdirilməmiş əməkdaşlıq üzrə konfrans keçirilib. Orada həm erməni, həm də Fransa tərəfi Sünik rayonunun "Ermənistanın geosiyasətinin ürəyi" olduğunu, oradakı Fransa konsulunun ofisinin müəyyən "çağırışlara" cavab vermək baxımından açıldığını bildirib. Məlum olduğu kimi, Zəngəzur dəhlizi deyilən yer Sünik rayonundan keçməli idi... Amma Ermənistan buna qarşıdır. İrəvan da, Paris də bu ərazini bir növ "təhlükə" xətti kimi göstərməyə çalışır...***

- Fransa hazırda Ermənistanın strateji tərəfdaşıdır. Konsulluğun açılması isə siyasi baxımdan bu faktın təsdiqidir. Məlumdur ki, İrəvan və Paris bu yaxınlarda ölkələr arasında strateji tərəfdaşlığın yaradılması haqqında sənəd imzalamaq barədə razılığa gəliblər. Bu, həm də Ermənistan ərazisində Qərbin mövcudluğu şəbəkəsinin genişlənməsinin sübutudur. İstənilən diplomatik missiyanın da müvafiq məxfi kəşfiyyatçıları var, ona görə də biz ofisin açılmasını Fransa xarici kəşfiyyatı DGSE-nin Ermənistan ərazisində əməliyyatlar aparmaq və faktiki olaraq əməliyyat mövqelərinə malik olmaq imkanlarının genişləndirilməsi kimi deyə bilərik.

Fransa Ermənistanla təkcə diplomatik, hərbi, hərbi-texniki səviyyədə həyata keçirilən tərəfdaşlıq əlaqələri yaratmayıb. Paris uzun illərdir ki, Cənubi Qafqazda hadisələrin fəal moderatoru olmağa çalışır, burada Rusiyaya qarşı, eləcə də Azərbaycan və Türkiyəyə qarşı planlarını həyata keçirir.

Görünən odur ki, Azərbaycanla həmsərhəd olan bu rayon regionun strateji nöqtələrindən biridir. Bu, təkcə Ermənistan-Azərbaycan sərhədi deyil, həm də Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9-10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatına əsasən, Azərbaycanın əsas hissəsini onun Naxçıvan anklavı ilə birləşdirən nəqliyyat dəhlizinin keçməli olduğu ərazidir. Bəyanatda qeyd olunur ki, Ermənistan Azərbaycanın qərb hissəsi ilə Naxçıvan arasında nəqliyyatın gediş-gəlişini təmin etməli və nəqliyyat Rusiya FTX-nin yerləşdirilən zabitlərinin nəzarəti altında olmalıdır. Ermənistan da sənədi imzalayıb, lakin bu bəndi yerinə yetirməkdən imtina edir. Görünən odur ki, dövlətlərin bu regionda mövqelərinin möhkəmlənməsi həm də Zəngəzur nəqliyyat dəhlizi məsələsi ilə bağlıdır.

Xatırladığımız kimi, Ermənistan Zəngəzur dəhlizi əvəzinə ”Dünyanın kəsişməsi” ideyasını reallaşdırmağa çalışır. Üstəlik, Ermənistan "3+3" layihəsindən imtina etmək istəyir. Buna görə də, Brüssel və Parisdən olan kuratorlarının dəstəyi ilə Paşinyan öz sxemini fəal şəkildə təbliğ edir. Amma ”Dünyanın kəsişməsi”nin həyata keçirilməsi olmayacaq. Logistika və geosiyasi baxımdan Ermənistan Cənubi Qafqazın çıxılmaz nöqtəsidir. Ona görə də Paşinyan nəqliyyat logistikası sahəsində eyni məqsəd və vəzifələrə sadiq qalarsa, bunun sonu sıfıra bərabər olacaq. "Dünyanın kəsişməsi" olmayacaq, bu, Ermənistan rəhbərliyinin istəklərindən və geosiyasi şoularından başqa bir şey deyil. Və əgər Ermənistan artıq təklif olunan layihələrə inteqrasiya etməsə, o zaman bu respublika özünü ən mühüm layihələrin kənarında qoyacaq.

***- Fransa bazasının Ermənistanda açıq şəkildə peyda olması ehtimalı nə dərəcədədir?***

- Paşinyan hələ də manevr edir. O, Ermənistan iqtisadiyyatının həm Avrasiya İqtisadi İttifaqı ölkələri ilə qarşılıqlı əlaqədən, həm də Rusiya-Ermənistan iqtisadi əlaqələrindən əldə etdiyi faydaları başa düşür. İrəvan indiki siyasi vəziyyətdə heç bir kəskin demarş etmir, eyni zamanda hər şeyin necə bitəcəyini hesablayır. Və burada analitiklər xoşagəlməz proqnoz verir, yəni müəyyən mərhələdə Rusiyadan Ermənistan ərazisini tərk etmək tələb olunacaq.

Vətəndaşların əksəriyyəti Paşinyanın qərbyönlü kursunu bölüşür. Ermənistan daxilində müxalifət effektsizdir. ”Qarabağ klanı” korrupsioner və cinayətkardır. Ermənistan daxilində daxili siyasi vəziyyəti dəyişmək şansı çox azdır. Bu baxımdan Rusiya-Ermənistan münasibətləri ilə bağlı proqnoz kifayət qədər mənfidir. Dediyim kimi, böyük ehtimalla Rusiyadan respublikanı tərk etmək tələb olunacaq. Və Rusiyanın yerinə Fransa hərbi bazası yaranacaq.

Fransa hazırda Ermənistanla hərbi-texniki əməkdaşlıq edir. Fransızlar respublikanın hava hücumundan müdafiəsinin əsas inteqratorları, ideoloqları və icraçılarıdır. Amma hələlik Paşinyan üçün Rusiyanın iqtisadi məhdudiyyətləri və sanksiyaları altına düşməməsi vacibdir. Ona görə də o, hələlik manevr edir. Ermənistan hələ də qərbyönümlü xəttinin davamı olaraq Sünik bölgəsində Rusiyanın baş konsulluğunun açılması üçün ayaqlarını sürüyür.

Erməni və Fransanın Sünik bölgəsinin ”Ermənistanın geosiyasi ürəyi” olması ilə bağlı təbliğatına gəlincə, bu, informasiya təbliğatı, ”Böyük Ermənistan” təbliğatı, geosiyasi ”istəklər”, yanaqları şişirtmək, təbil çalmaq, məşəl yürüşlərindən başqa bir şey deyil. Yeri gəlmişkən, məşəl yürüşlərini yalnız totalitar rejimli ölkələr təşkil edir. Bu günlərdə Almaniyada kansleri yola salmaq üçün məşəl yürüşü keçirilib. İrəvanın mərkəzində Hitlerin, nasist əməkdaşı Qaregin Njdenin abidəsi var. Heyf, ”qəhvəyi” Ermənistan təəssüf ki, yaxşı heç yerə gedə bilməyəcək. Bu da ən mühüm daxili siyasi proseslərin gedişinə müəyyən təsir göstərir.

***- Ermənistan-Azərbaycan nizamlanmasında heç bir irəliləyişin olmadığını görürük. Bunun səbəbi nədir?***

- Paşinyan manevr edir. Amma göz qabağındadır ki, Ermənistan Konstitusiyasını dəyişdirmədən, Azərbaycana ərazi iddiasından əl çəkmədən və ATƏT-in Minsk Qrupunu buraxmadan Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalanmayacaq. Ermənistan bütün bu ənənəvi cəhdləri ilə demək istəyir ki, biz çox böyükük və Azərbaycan özü imzalamaq istəmir, amma bu heç nə demək deyil. Bu, davam edən ənənəvi informasiya müharibəsidir. İndi qarşıdurmanın istənilən forması həm hərbi, həm də geosiyasi xarakterli hibrid xarakter daşıyır. Müasir dünyanın təbiəti budur. Hər bir ölkə öz problemlərini həll etməyə çalışır, çox vaxt müxalifət və digər ölkələrin və ya tərəfdaşların mövqelərinə qarşı çıxır. Nə qədər ki, müasir dünyada dövlətlər var, onların arasında barışmaz ziddiyyətlər olacaq. Bu cür ziddiyyətlərin həllinin ifrat formatı müharibədir. Ona görə də Rusiya, Azərbaycan və digər region dövlətləri Rusiya-Ermənistan sülh müqaviləsinin imzalanmasında maraqlıdırlar. Ermənistan isə müxtəlif güc mərkəzlərinə arxalanaraq, buna məhəl qoymur və sülh prosesini ləngidir, eyni zamanda yenidən silahlanır və hərbi güc toplayır.

***Tərcümə - Elçin Bayramlı***

# Planetin “zibilqabı": okeanlar

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb*

***Dünyanın üçdə ikisini su ərazisi əhatə edir və bizi qida, enerji kimi təməl ehtiyaclarla təmin edir. Yəni yer kürəsinin təxminən 71%-i su ilə örtülüdür, yalnız 29%-i qurudur və bu quru sahənin təxminən 50-55%-də insanlar faktiki olaraq məskunlaşıblar. Çünki yer kürəsinin quru olan 29% -lik ərazisinin 20% -i səhralar və yararsız torpaqlar, 10% -i buzlaqlar və dağlıq ərazilər, 30-35% -i kənd təsərrüfatı məqsədli torpaqlar, 50-55% -i isə insan məskunlaşması mümkün olan ərazilərdir. Bu isə ümumi Yer səthinin yalnız təxminən 14-15%-i deməkdir. Yer kürəsinin su ərazisinin 96.5%-i okean və dənizlərdədir (duzlu su), 2.5%-i isə şirin sudur.***







Okeanların mövcud vəziyyəti ürəkaçan deyil, çirklənmə səviyyəsi 2025-ci göstəricilərində daha da pisləşib. Sualtı dünyanın çirklənməsi həm ekosistemlərə, həm də insan sağlamlığına mənfi təsir göstərir. Planetimizin var olması üçün təhlükəsizliyi vacib olan sualtı dünya hər gün daha çox təhlükədədir. İnsan faktorunun təsiri ilə dəyişən iqlim şəraiti okeanlardan da yan keçmir.

Dünyada sənayeləşmə prosesi ilə əlaqədar karbon qazı emissiyalarının miqdarı gündən-günə artır, Dənizlər karbon qazını udduğu üçün iqlim dəyişikliyini ləngidir, lakin bu onlara baha başa gəlir. Karbon qazı suya qarışanda karbon turşusu suya keçir, su turş olur və onun pH dəyəri azalır. Dəniz suyunun pH dəyəri 1870-ci ildə 8,2 idisə, indi 8,1-dir. 2100-cü ildə dənizlərdə PH dəyərinin 7,7 faizə düşəcəyi gözlənilir.

İlk baxışdan bu dəyərlərin azalması çox kiçik rəqəm kimi görünə bilər. Amma bu rəqəmlər dəniz suyunun turşuluğunun 150 faiz artacağını göstərir. Bir çox dəniz heyvanları, xüsusilə də yumşaq və onurğasız heyvanlar bu vəziyyətdə çoxala bilməyəcək və bir müddət sonra nəsli kəsiləcək. Bu vəziyyətin ilk əlamətləri 2005-ci ildə ABŞ-ın Kaliforniya sahillərindəki mirvari molyuskası fermalarında müşahidə edildi. Dəniz suyu molyuska sürfələri üçün çox turş olmuşdu. Sürfələr öləndə bu sənaye növü də yox oldu. Okeanların çirklənməsinin qarşısını almaq üçün karbon qazı emissiyalarını azaltmaq lazımdır.

Dənizlər təkcə karbon qazını deyil, həm də istiliyi özünə çəkib saxlayır. İnsanların yaratdığı karbon qazı emissiyaları istiləşməyə səbəb olur və bu istiliyin 93 faizini dənizlər saxlayır. Bu, dəniz sularının mütləq istiləşməsi deməkdir. 1900-2008-ci illər arasında dəniz səthinin temperaturu qlobal miqyasda 0,62 °C artıb. Əslində, bəzi bölgələrdə bu nisbət 2,1 °C-ə çatdı. Bu, su altında yaşayan mərcanlar kimi bir çox orqanizmin həyatını təhlükə altına salır. Mərcanların içində fotosintez edən çoxrəngli yosunlar var. Lakin dəniz suyu çox istiləşdikdə mərcanlar bu yosunları atırlar və aclıqdan ölürlər. Bu proses mərcanların ağarması adlanır. Avstraliya sahillərindəki Great Barrier Reef-də mərcanların üçdə biri artıq ağarıb. Yalnız karbon qazı emissiyalarını azaltmaqla dəniz suyunun temperaturunun artmasının qarşısını almaq olar.

Sənaye müəssisələrinin çirkab sularının dənizə axıdılması səbəbindən təhlükəli kimyəvi maddələrlə yanaşı, qurğuşun və civə kimi ağır metallar, çətin təmizlənən üzvi zərərli maddələr də dənizlərə daxil olur. Yağış da kənd təsərrüfatı gübrələrini, bəzi qida maddələrini də dənizə ötürür. Nitrat və fosfat kimi qida maddələri ilə zənginləşmə təbii yolla baş verə bilər, lakin dənizdəki bütün qida maddələrinin təxminən 80%-i kanalizasiya, sənaye tullantıları, şəhər tullantıları və kənd təsərrüfatı axıntı olaraq yaranır. Qalanları əsasən nəqliyyat, sənaye, elektrik istehsalı və istilik nəticəsində mədən yanacaqlarının yandırılması zamanı ayrılan azot qazlarından meydana gəlir. Bunlar balinaların, köpək balıqlarının və digər dəniz heyvanlarının yağında toplanır və nəticədə qida zənciri ilə insan orqanizminə ötürülür.

Əslində, balıq və digər dəniz məhsulları sağlam qidalar hesab olunur və bütün dünyada bir çox insan bu proteinlə zəngin qidalarlın sayəsində ac qalmır. Əvvəllər dənizdən yalnız təbiətin verə bildiyi qədər məhsul çıxarılırdı. Amma indi bu balans itib, insanlar daha çoxunu istəyir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, 2015-ci ildə dənizlərdən 81 milyon tondan çox balıq və digər dəniz məhsulları çıxarılıb. Bu göstərici 2014-cü illə müqayisədə 1,7 faiz artım deməkdir. Bu rəqəmlər göstərir ki, hazırda dünyada balıq və digər dəniz məhsulları ehtiyatlarının üçdə biri tükənib, yarısı isə son həddədir. Dünyanın ən yaxşı balıqçılıq ölkələri sırasına Çin, İndoneziya və ABŞ daxildir. Balıq və digər dəniz məhsullarının qlobal ovlanmasının 80 faizi əsasən sənayeləşən 23 ölkəyə məxsusdur.






Uzun müddət belə davam etdikdən sonra balıqçılıq təsərrüfatları yaradılaraq okeanların qorunmasını təmin etmək fikri meydana çıxdı. Təsərrüfatlarda balıqlar artırılacaq, təlabat ödəniləcək, beləcə okeanlardan normadan çox balıq tutulmasının qarşısı alınacaqdı. Lakin bu təsərrüfatlarda yetişdirilən balıqların ekoloji cəhətdən sağlam olmadığı məlumdur, xüsusi dərmanlarla, normadan artıq məhsul ala bilmək üçün artırılan balıqlar sağlam qida deyil. Bundan əlavə, bu təsərrüfatların hamısı ətraf əraziləri, dolayısı ilə ekologiyanıdərmanlarla çirkləndirir. Həmçinin burada balıq xəstəlikləri də daha asan yayılır, çirkab suları dənizə axıdıldığından xəstəlik dəniz canlılarına da ötürülür.

Hal-hazırda okeanlarda 75-199 milyon ton plastik tullantının mövcud olduğu bildirilir. Üstəlik hər il 23 milyon tonadək plastik tullantı su hövzələrinə daxil olur. Plastik tullantılar okean səthinin təxminən 40%-ni örtür. Ən böyük plastik yığıntı sahəsi olan Sakit Okeanın zibil sahəsi 1.6 milyon kvadrat kilometr ərazini əhatə edir.

Okeanlar uzun illərdir ki, dənizçilərin, nəhəng gəmilərin və sahilyanı şəhərlərin zibilliyi olub. Hazırda məlumatlılığın artmasına baxmayaraq, okeanlarda hələ də böyük miqdarda zibil yığılır. Okeanlarda plastik çirklənmə ilə bağlı araşdırma aparan bir qrup alim 1979-cu ildən bəri toplanan tullantıların statistikası barədə qeydləri təhlil edib. Nəticələrə görə okeanlarda dünyanın təxminən 70 faizini əhatə edən - təxminən 171 trilyon ədəd plastik-polietilen tullantı var. Üstəlik hər il 23 milyon tonadək plastik tullantı su hövzələrinə daxil olur. Plastik tullantılar okean səthinin təxminən 40%-ni örtür. Ən böyük plastik yığıntı sahəsi olan Sakit Okeanın zibil sahəsi 1.6 milyon kvadrat kilometr ərazini əhatə edir.

”The Ocean Cleanup” təşəbbüsü ilə 2024-cü ildə okeanlardan və çaylardan 20 milyon kiloqram tullantı çıxarılıb.

Alimlər xəbərdarlıq edirlər ki, okeanlardakı plastik sıxlığı ilə bağlı heç bir tədbir görülməsə, tullantılar 2040-cı ilə qədər təxminən 3 dəfə arta bilər. BMT-nin ”Qlobal Plastik Müqaviləsi” 2040-cı ilə qədər plastik çirklənməni aradan qaldırmağı hədəfləyir. Müqayisə üçün bildirək ki, əgər 2005-ci ildə okeanlarını çirkləndirən plastik sayı 16 trilyon idisə bu rəqəmin 18 il ərzində təqribən 171 trilyona yüksəlib. 2005-ci ildən sonra baş verən ciddi artımı təbiəti qoruma proqramlarına etinasız yanaşılması, həmçinin indiyədək bu dərəcədə dərin araşdırılma aparılmaması bu rəqəmin yüksəlməsinə səbəb olub.

Okean çirklənməsinin 80%-i təmizlənməmiş kanalizasiya, pestisidlər və kənd təsərrüfatı tullantılarından qaynaqlanır. Bu çirklənmələr nəticəsində 500-dən çox ”ölü zona” yaranıb, burada oksigen çatışmazlığı səbəbindən dəniz canlıları həyatda qala bilmir və köç edirlər. UNESCO-nun 2024-cü il hesabatına görə, okeanların istiləşməsi son 20 ildə iki dəfə sürətlənib. Bu, dəniz ekosistemlərinin pozulmasına, dəniz canlılarının yaşayış mühitlərinin məhv olmasına, köç etməsinə səbəb olur.

***Lalə Mehralı***

***PS: Hər il 8 iyun tarixində Ümumdünya Okeanlar Günü (World Oceans Day) qeyd olunur. Bu tarix ilk dəfə 1992-ci ildə Braziliyada keçirilən Rio Yerin Sammitində təklif olunub və 2008-ci ildən etibarən BMT tərəfindən rəsmi olaraq tanınıb. Günün təsis edilməsində məqsəd okeanların yer planeti üçün əhəmiyyətini vurğulamaq, su mühitinin çirklənməsinin qarşısını almaq, iqlim dəyişikliyi və biomüxtəlifliyin azalması kimi problemlərə diqqət çəkməkdir.***

SƏS

6 iyun
2025-ci il

# Səyahət sığortası - həyatımızı, pulumuzu və hüququmuzu necə qoruyur?






“Qanunvericilikdə ”səyahət sığortası” ayrıca sığorta növü kimi ayrıca qeyd olunmasa da, bu sığorta fiziki şəxslərin şəxsi sığortası kateqoriyasına daxildir”. Bu sözləri SİA-ya açıqlamasında Vəkillər Kollegiyasının üzvü Paşa Səfərov deyib. Onun sözlərinə görə, bu da o deməkdir ki, səyahət sığortası insanın həyatı, sağlamlığı, əmək qabiliyyəti və sosial təminatı ilə bağlı əmlak mənafelərini qorumağa yönələn sığorta növüdür: ”Siz başqa ölkəyə və ya şəhərə səfər edərkən, qəfil xəstəlik, qəza, bagaj itməsi, hüquqi problemlər və digər gözlənilməz hallarla üzləşə bilərsiniz. Bu kimi hallarda səyahət sığortası sizin maliyyə və hüquqi təhlükəsizliyinizi təmin edir.

**Hüquqi əsas və azadlıq**

Səyahət sığortası tam könüllü və azad bir sığorta növüdür. Yəni bu sığortanı istənilən şəxs sərbəst şəkildə, öz istəyinə əsasən bağlaya bilər. Heç kimə məcbur deyil, amma bir çox hallarda, xüsusilə vizalar üçün bu sığorta tələb olunur.

Səyahət sığortası ilə bağlı hüquqi münasibətlər əsasən ”İcbari Sığorta haqqında” və ”Sığorta fəaliyyəti haqqında” qanunlarla tənzimlənir. Bu qanunlar çərçivəsində tərəflərin hüquqları, vəzifələri və sığorta təminatının hədləri müəyyən olunur. Səyahət sığortası sadəcə bir kağız parçası deyil. Bu, gözlənilməz risklər qarşısında sizin təhlükəsizliyinizin hüquqi təminatıdır. Səfər etməzdən əvvəl bu məsələyə məsuliyyətlə yanaşmaq, həm özünüzün, həm də yaxınlarınızın rifahını qorumaq deməkdir”.

***Söylü Ağazadə***


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Yenə bank kartlarından 10 minə yaxın pul oğurlanıb...



İyunun 4-də daxil olan müraciətlər əsasında aparılan araşdırmalar nəticəsində bir sıra şəxslərin bank hesablarından qanunsuz yolla pul vəsaitlərinin çıxarıldığı müəyyən olunub. Oğurlanmış məbləğlər arasında 7 min, 881, 464, 354, 300, 170, 100, 100, 70, 70 və 68 manat kimi rəqəmlər qeydə alınıb. Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən məlumat verilib.

Nazirlik vətəndaşlara müraciət edərək onları bank kartları ilə bağlı dələduzluq hallarına qarşı diqqətli və ehtiyatlı olmağa çağırır və vətəndaşlara xatırladır: ”Bu cür cinayət halları adətən naməlum nömrələrdən gələn zəng və SMS-lər, habelə saxta saytlar və platformalar vasitəsilə həyata keçirilir. Şəxsi bank kartı məlumatlarını, xüsusilə, kartın nömrəsini, PIN kodunu, CVV kodunu və birdəfəlik təsdiq (OTP) şifrələrini heç bir halda digər şəxslərlə, o cümlədən özünü bank və ya dövlət qurumu əməkdaşı kimi təqdim edən şəxslərlə paylaşmaq olmaz. DİN vətəndaşları bir daha xəbərdar edir ki, naməlum nömrələrə cavab verərkən ehtiyatlı olun, SMS və e-poçtlardakı şübhəli keçidlərə daxil olmayın, heç bir halda bank kartı və mobil bankçılıq məlumatlarınızı paylaşmayın”. Məlumatda, həmçinin bildirilir ki, belə hallarla üzləşən şəxslər dərhal polis orqanlarına və banklara müraciət etməlidirlər.

# Qurban ətindən kabab çəkmək olar?

“Qurban əti ilə kabab çəkmək ümumiyyətlə haram və ya qadağan edilən bir şey deyil. Yəni insan öz halal qurban ətindən kabab da bişirə bilər, digər yeməklər də hazırlaya bilər. Lakin burada diqqət yetirilməli olan əsas məsələ qurban ətindən istifadə zamanı yaranacaq ictimai və mənəvi təsirlərdir”. Bu sözləri SİA-ya açıqlamasında İlhaiyyatçı, publisist Hacı Rahim İsmayılov deyib.

Rahim İsmayılov sözlərinə belə davam edib: ”Məsələn, əgər bir şəxs mənzildə yaşayırsa və orada qonşular var, xüsusilə maddi imkanı aşağı olan ailələr və ya uşaqlar varsa, kabab bişirdikdə ət iyi onların hissiyyatına təsir edə bilər. Onlar yeməsələr belə, o iyin təsiri ilə onların nəfsində istək yarana bilər. Bu da ”tamah” adlandırılan hissin oyanmasına səbəb olur. Uşaq da olsa, böyük də olsa, əgər bir insanda sənə məxsus olan bir şeyə qarşı arzu yaranırsa və sən bu arzunu qarşılamırsansa, bu, mənəvi məsuliyyət yarada bilər.

Belə hallarda insan iki yoldan birini seçməlidir:



1. Ya kababı elə şəkildə bişirməlidir ki, ətrafda bu tamaha səbəb olacaq insanlar olmasın və ya o hissiyat yaranmasın;

2. Ya da əgər artıq həmin istəyin yaranacağı ehtimalı varsa, bişirilən kababdan onlara da pay verilməlidir.

Bu, dini baxımdan ”göz haqqı” kimi tanınan bir anlayışla da bağlıdır. Göz haqqı - bir şeyə baxıb arzu edən insanın həmin şeydən nəsibini almaması halında onun könlündə qalan hissədir. İslam etikası bu cür hallarda paylaşmağı, könül almağı təşviq edir. Əgər kabab məclisi içkisizdirsə, ədəblə və halal şəkildə təşkil olunursa, bu, qurbanın hörmətinə zidd deyil. Amma əsas olan, insanların hisslərini və mənəviyyatını nəzərə almaqdır.

Nəticə etibarilə, qurban ətindən kabab bişirmək olar. Lakin bu zaman sosial mühit, qonşuluq münasibətləri və ətrafdakılarla paylaşmaq kimi amillər göz önünə alınmalıdır. Əgər bu məsələlərə diqqət yetirilərsə, dini və mənəvi baxımdan heç bir problem olmaz”.

***Ayşən Vəli***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**